RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 252 (9997) 28 noyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Prezident İlham Əliyevdən əhalinin məşğulluğunun artırılmasına mühüm töhfə

## Dövlət başçısı "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib




Ərazisi 10 hektar olan "AZWOOL" mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.

Mineral daş yunu zavodunun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb. Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.

2

# İlham Əliyevin logistika siyasəti real nəticələrə hesablanır



Prezident İlham Əliyevin apardığı xarici siyasəti izlədikdə aydın görünür ki, dövlətimizin başçısı Azərbaycanın dəstək verdiyi layihələrə qarşı çıxan ölkələri birgə maraqlar çərçivəsində birləşdirməyi bacardı. Məsələn, hər vəchlə Orta dəhlizə və Zəngəzur dəhlizinə (TRIPP) qarşı çıxan İran və Rusiya bu gün layihənin bir parçasına çevriliblər. Prezident qətiyyətlə, səbirlə danışıqlar apararaq buna nail olub. Beynəlxalq müstəvidə də dövlətimizin başçısının bu siyasi məharəti yüksək qiymətləndirilir.

Məlum olduğu kimi, Türkmənistanın özünəməxsus xarici siyasəti var və bu Mərkəzi Asiya ölkəsi çox məsələlərdə neytrallıq göstərir və həmin səbəbdən bir sıra layihələrdən kənarda durmağa üstünlük verir. Ancaq Prezident İlham Əliyev bu ölkənin də Orta dəhlizlə bağlı dünya səhnəsinə çıxmasında yardımçı oldu. Dövlətimizin başçısı bu uğura təkcə diplomatik vasitələrdən istifadə etməklə deyil, tarixdən gələn qardaşlıq bağları və milli kimliyimiz hesabına imza atdı. Prezidentin belə münasibəti, təbii ki, Türkmənistanda da yüksək dəyərləndirildi. Bunun nəticəsidir ki, qardaş ölkənin Türkmənbaşı limanı Orta dəhlizin mühüm seqmentinə çevriləcək. Üstəlik, bu ölkə gələcəkdə öz enerji resurslarını Azərbaycan üzərindən Türkiyə və Avropa bazarına çıxaracaq.

10

# SINAQ

## Ümumxalq məhəbbəti daim bütün xain niyyətlərdən yüksəkdə dayanıb

Tarixinin ən ağır dövrlərindən birini yaşayan Azərbaycan xalqı bu dəfə üzünü sınanmış övladına, görkəmli dövlət xadimi və dünya səviyyəli siyasətçi Heydər Əliyevə tutdu, onu yenidən ölkə rəhbərliyinə dəvət etdi.

Xalqın bu çağırışına biganə qalmayan Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdı.

Tarixən qısa bir müddətdə Ümummilli Lider Heydər Əliyev müharibə bölgəsində atəşkəsə nail oldu, xaos, anarxiya və özbaşınalıqlara son qoydu, ölkədə möhkəm və dönməz sabitlik yaradaraq Azərbaycanın müstəqilliyini əbədiliyə çevirdi.

Lakin özgələrinin əlində alətə çevrilənlər yenə sakit dayanmadılar.

Surət Hüseynov yenidən dövlət çevrilişinə cəhd etdi.

Bu dəfə daş qayaya rast gəlmişdi!

Ulu Öndər Heydər Əliyev adi rəhbərlərdən deyildi!

O, xaraktercə qorxmaz, iradəcə möhkəm, zəngin həyat təcrübəsinə malik dahi siyasətçi və xalqın ən yüksək dəstəyinə güvənən dövlət xadimi idi!

"Mən ömrümün yerdə qalan hissəsini də xalqıma bağışlamışam" söyləyərək ali postunda möhkəm dayandı!

Sonra xalqına müraciət edərək müstəqilliyimizi qoruyub saxlamaq üçün ondan kömək istədi.

4 oktyabr 1994-cü ildə axşam paytaxt Bakıda yaşına və cinsinə baxmayaraq, çoxsaylı insan sevimli rəhbərinin çağrışına cavab olaraq Prezident Administrasiyasının qarşısına toplaşdı.

Sonrakı günlərdə də Heydər Əliyevə ümumxalq dəstəyi kütləvi şəkildə davam etdi!

Budəfəki sınaqdan xalqın sevimli rəhbəri qalib çıxdı, dövlət çevrilişi cəhdi baş tutmadı!

Azərbaycanı xaricdə istəməyənlər ölkə daxilindəki dönüklərə və xəyanətkarlara güvənərək, 13-18 mart 1995-ci ildə "omonçu" R.Cavadovun başçılığı ilə daha bir dövlət çevrilişinə cəhd göstərdilər.

Yenə Ulu Öndər Heydər Əliyev xalqına üz tutdu, onları xəyanətkarlara qarşı mübarizəyə çağırdı.

Xalq eyni məhəbbət və fəallıqla sevimli rəhbərinin ətrafına toplaşaraq qaragüruhçulara qarşı polad iradəsini ortaya qoydu!

Heydər Əliyevin müdrikliyi, xalqın ona tükənməz sevgisi sayəsində dövlət çevrilişinə ikinci cəhd də uğursuzluğa düçar oldu!

Bəzən insanlar öz ağıl və bacarıqları, şəxsi intellektləri ilə bağlı yanlış, şişirdilmiş fikirdə olur, imkan və qabiliyyətlərini əsassız şəkildə yüksək təsəvvür edirlər.

Bu isə sonradan onlara biabırçı məğlubiyyət, utanc və iflas gətirir.

Hərdən tanınmış ziyalıların, müxtəlif sahələrdə müəyyən xidməti olan insanların kimlərəsə inanaraq və arxalanaraq gülünc oyunlara qurşanmaları təəssüf və təəccüb doğurur.

Belə oyunlardan biri 2009-cu ildə baş verdi.

Azərbaycan xalqının bir neçə tanınmış insanı "Ziyalılar forumu" adlı bir qurum yaratdılar.

Qurumun təşəbbüsçüsü isə, deyilənlərə inansaq, yazıçı R.İbrahimbəyov olmuşdu.

Ancaq qurum fəaliyyətə başladıqdan sonra onun ziyalılığa dəxli olmayan işlərə qurşandığı bəlli oldu.

Əslində, oradakıların bütün xalqın adından danışmağa səlahiyyətləri yox idi!

5

# Azərbaycan sülh qovşağına çevrilib



Prezident İlham Əliyevin müzəffər liderliyində Azərbaycanın yaratdığı yeni reallıq, ilk növbədə, özündə beynəlxalq hüququn aliliyinin təntənəsi, beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin, xüsusən BMT Nizamnaməsində ayrıca diqqət yetirilən xalqların əməkdaşlığı prinsipinin praktik reallıq mərhələsinə qədəm qoyması kimi xarakterizə oluna bilər. Daha dəqiq desək, Azərbaycan Respublikası özünü regionun əsas hərbi-siyasi gücü, qlobal miqyasda isə getdikcə imkanları artan, önəmli orta güc kimi təsdiq etməklə yaranan yeni reallığın dayanıqlı əsaslarda mövcudluğunu davam etdirə biləcəyini sığortalamış oldu. Təhlükəsiz, etibarlı və dayanıqlı mühit isə, istənilən növ əməkdaşlıq, o cümlədən siyasi, iqtisadi, mədəni, humanitar əlaqələrin zəmanət elementi kimi çıxış edən əsas amildir.

7

# Qarabağ və Şərqi Zəngəzurda bərpa edilən həm də milli irsimizdir



Bu gün işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa prosesi çərçivəsində xalqımızın milli-tarixi irsi də yenidən dirçəlir. Tarixi abidələr, milli-mədəni nümunələr, məscidlər bərpa olunur, yenidən qurulur, əvvəlki vəziyyətinə qaytarılır.

Ermənilərin Qarabağda öz adlarına çıxarmağa çalışdıqları tarixi və dini abidələrin bir qismi alban irsinə aid nümunələrdir. Qarabağ və Şərqi Zəngəzur bölgəsində 200-ə yaxın alban məbədi, monastrı, alban xristian kilsəsi ilə bağlı tarixi yerlər mövcuddur. 30 il ərzində erməni işğalçıları tərəfindən bu irsin bir qismi dağıdılıb, bir qismi ermənilərə sərf edən formada dəyişdirilib. Alban irsinin bölgənin tarixi baxımından əhəmiyyətini dərk edən ermənilər istər işğal illərində, istərsə də ondan əvvəl onu özlərinə bağlamaq və Azərbaycan torpaqlarına iddialarını bu amillə gücləndirmək üçün xeyli saxtakarlıqlar ediblər.

Azərbaycanın zəfəri Alban irsini də xilas etdi. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərinin bir istiqamətini də ermənilərin dağıtdığı tarixi və dini abidələrin bərpası təşkil edir. Bu sırada saxtalaşdırılan alban irsinə aid nümunələrin də tarixi simaları özlərinə qaytarılır.

7

# Prezident İlham Əliyevdən əhalinin məşğulluğunun artırılmasına mühüm töhfə

## Dövlət başçısı "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib














**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunda "Matanat-A" şirkətinin "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Matanat-A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov dövlətimizin başçısına zavodun fəaliyyəti barədə məlumat verdilər.

Prezident İlham Əliyevə əvvəlcə əsası 2000-ci ildə qoyulan "Matanat-A" şirkəti barədə məlumat verildi. İnşaat materiallarının istehsalı sektorunda 25 ildir fəaliyyət göstərən şirkətin tərkibinə "Matanat-A" Quru İnşaat Qarışıqları, AĞDAĞ gips-karton və gipsəsaslı məhsulların istehsalı, AZERLİME Əhəng, avadanlıq və dəzgahların istehsalı və ELBERG maşınqayırma zavodları daxildir. Şirkətin müəssisələrində ümumilikdə 1000-ə yaxın iş yeri yaradılıb.

Ərazisi 10 hektar olan "AZWOOL" mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.




Mineral daş yunu zavodunun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb. Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var.

Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.

Prezident İlham Əliyev "Matanat-A" şirkətinin müəssisələrində istehsal edilən məhsullarla da tanış oldu. Bildirildi ki, şirkətin zavodlarında 200-dən artıq ticarət markası ilə 3 mindən çox çeşiddə məhsul istehsal edilir. Məhsullar daxili tələbatı ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə Qazaxıstan, Gürcüstan, İraq, Ukrayna, Özbəkistan və digər xarici ölkələrə ixrac olunur.

Dövlətimizin başçısı zavodu işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə, eyni zamanda yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfə verir.

# Azərbaycan və İordaniya Hökumətlərarası Komissiyanın IV iclası keçirilib

Bakıda Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IV iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasdan əvvəl Azərbaycan-İordaniya Hökumətlərarası Komissiyanın IV iclasının iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb. Daha sonra nümayəndə heyəti Şəhidlər xiyabanında və Zəfər Parkında olub, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Şəhidlərimizin xatirəsini yad ediblər.

Komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev və İordaniyanın sənaye, ticarət və təchizat naziri Yarub Qudah arasında iclasdan əvvəl keçirilən görüşdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və bu əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub, Hökumətlərarası Komissiyanın növbəti iclasının geniş məzmunlu gündəliyi nəzərdən keçirilib.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən iclasda çıxış edən S.Babayev Azərbaycan ilə İordaniya arasında 30 ildən artıq dövr ərzində formalaşmış münasibətlərin və Prezident İlham Əliyev ilə Kral II Abdullah arasında yüksəksəviyyəli siyasi dialoqun iki ölkə arasındakı əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynadığını vurğulayıb. Nazir ikitərəfli münasibətlərin inkişafında Hökumətlərarası Komissiyanın mühüm platforma olduğunu bildirib və qeyd edib ki, komissiyanın keçirilən IV iclası əvvəlki təşəbbüsləri irəli aparmaq, eyni zamanda yeni əməkdaşlıq sahələrini genişləndirmək üçün mühüm mərhələ olacaq.

Bildirilib ki, iki ölkə arasında indiyədək imzalanmış 40-dan çox sənəd əməkdaşlığın inkişafı üçün güclü hüquqi baza formalaşdırır və yeni təşəbbüslərin reallaşdırılması üçün əlverişli imkanlar yaradır.



Nazir çıxışında regional transformasiyadan bəhs edib və bildirib ki, hazırda dünyada müşahidə olunan geosiyasi dəyişikliklər Cənubi Qafqaz regionunu yeni inkişaf mərhələsinə çıxarır və Ermənistan-Azərbaycan sülh prosesi çərçivəsində Vaşinqtonda imzalanmış Bəyannamə bölgə üçün tarixi dönüş nöqtəsidir. O qeyd edib ki, sənəd Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edir və Zəngəzur dəhlizinin açılmasına şərait yaradır. Bu yeni nəqliyyat arteriyası təkcə Cənubi Qafqaz deyil, eyni zamanda, Mərkəzi Asiya və Yaxın Şərq üçün də ticarət, logistika, enerji tranziti və regional inteqrasiya sahələrində geniş imkanlar açır və regionda investisiya, turizm, tranzit, logistika üçün sabit, proqnozlaşdırıla bilən və əlverişli mühit formalaşdırır. Nazir bu yeni reallıqlar fonunda İordaniyanı regionda genişlənən ticarət və nəqliyyat əməkdaşlığında fəal iştiraka dəvət edib.

S.Babayev bildirib ki, Azərbaycan və İordaniya arasında iqtisadi əməkdaşlıq dinamik inkişaf edir və tərəflər arasında daha böyük potensial mövcuddur. Qeyd olunub ki, Hökumətlərarası Komissiyanın nəticələri də iki ölkənin ticarət, investisiya, sənaye, enerji, nəqliyyat, kənd təsərrüfatı, rəqəmsal inkişaf, təhsil, elm, mədəniyyət, turizm, qida təhlükəsizliyi, səhiyyə, gömrük və digər sahələrdə əməkdaşlığının gücləndirilməsi baxımından məhsuldar olacaq.

İkitərəfli ticarətin artmaqda davam etməsi, Azərbaycanın kənd təsərrüfatı, qida və digər məhsullar üzrə İordaniya bazarında rəqabət imkanlarını genişləndirməsi, İordaniyanın isə dərman və digər sənaye məhsullarının ixracında fəallıq nümayiş etdirməsi və investisiya dialoqunun dərinləşdirilməsi komissiyanın iclasında mühüm irəliləyişlər kimi qiymətləndirilib. Qeyd olunub ki, nəqliyyat əlaqələrinin təkmilləşməsi, o cümlədən hava marşrutlarının genişləndirilməsi, humanitar və mədəni layihələr, təhsil sahəsində tələbə mübadiləsi və universitetlərarası əməkdaşlığın gücləndirilməsi qarşılıqlı əlaqələrin daha da inkişafına şərait yaradır.

Komissiyanın həmsədri, İordaniyanın sənaye, ticarət və təchizat naziri Yarub Qudah çıxışında iki ölkə arasında münasibətlərin iqtisadi əməkdaşlıq üçün geniş imkanlar yaratdığını vurğulayıb. O, İordaniyanın Azərbaycanla ticarət, investisiya, sənaye, enerji, turizm və logistika sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlı olduqlarını qeyd edib. Nazir bildirib ki, Hökumətlərarası Komissiyanın fəaliyyəti qarşıdakı illərdə birgə layihələrin artmasına, biznes dairələri arasında birbaşa əlaqələrin genişlənməsinə töhfə verəcək.

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya 23 noyabr 2007-ci il tarixində yaradılıb və Birgə Komissiyanın bundan əvvəl üç iclası keçirilib.

## "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydasının, o cümlədən sınaq imtahanında iştirak haqqının məbləğinin və davamlı peşəkar inkişaf üzrə minimum kreditin həcmi"nin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 8 iyun tarixli 108 nömrəli və "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsinin forması"nın təsdiq edilməsi haqqında" 2010-cu il 12 iyun tarixli 111 nömrəli qərarlarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 344** **Bakı şəhəri, 26 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiya imtahanının sınaq imtahanında iştirak haqqının məbləği tibb və ya səhiyyə ixtisasları üzrə ali təhsili olan tibb mütəxəssisləri üçün 35 (otuz beş) manat, orta ixtisas təhsili olan tibb mütəxəssisləri üçün 25 (iyirmi beş) manat təsdiq edilsin.

3. Davamlı peşəkar inkişaf üzrə minimum kreditin həcmi hər il orta hesabla 50 (əlli) kredit olmaqla 5 (beş) il ərzində minimum 250 (iki yüz əlli) kredit təsdiq edilsin.

4. Bu Qərar qüvvəyə mindiyi günədək sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddəti başa çatmamış tibb mütəxəssisləri minimum 250 (iki yüz əlli) kreditdən hər il üzrə nəzərdə tutulmuş orta illik hesabla 50 (əlli) krediti topladıqda, sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddətinə bir ildən az qalmış tibb mütəxəssisləri 50 (əlli) krediti topladıqda şəhadətnamə əldə etsinlər.

5. "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 553 (Cild I); 2024, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507) ləğv edilsin.

6. "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsinin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 556 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 345** **Bakı şəhəri, 26 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 avqust tarixli 190 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I); 2024, № 3, maddə 296; 2025, № 4 (II kitab), maddə 426, № 6, maddə 589) ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.11-ci bəndə (birinci halda) "Nazirliyinin" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin," sözləri əlavə edilsin;

1.2. 6.3-cü bənddə "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 949 (Cild I); 2024, № 3, maddə 316; 2025, № 6, maddə 593) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında istehsal olunan məhsullar üçün dövlət sifarişlərinin verilməsi Qaydası"nın 2.14-cü bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 mart tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 3, maddə 344) ilə təsdiq edilmiş "Dövlət-özəl tərəfdaşlığı Qaydaları"nın 11.2.1-ci yarımbəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 174-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 347** **Bakı şəhəri, 27 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 174-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 820 (Cild I); 2024, № 1, maddə 83, № 2, maddə 209, № 3, maddə 307, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin" I. Təhsil müəssisələrinin tikintisinə dair vahid normalar" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.5.8-ci və 1.5.10-cu yarımbəndlər ləğv edilsin;

1.2.1.5.12-ci yarımbəndin birinci cümləsində "lüminessent və közərmə lampalarından" sözləri "müxtəlif növlü lampalardan" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 aprel tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 799 (Cild I); 2024, № 1, maddə 77, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin fiziki mühafizəsi və mühəndis təhlükəsizlik sistemləri ilə təchiz edilməsi üzrə Xüsusi Tikinti Normaları"nın 9.15.2.1-ci yarımbəndinin birinci cümləsində ", közərmə lampalı və ya digər növ" sözləri "və ya" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 400 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1563 (Cild I); 2024, № 3, maddə 333; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 oktyabr tarixli 296 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tikinti obyektlərinə tələb olunan gücün hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.18-ci bəndin ikinci abzası ləğv edilsin;

3.2. həmin Qaydaya əlavə - "Cədvəl 12. İctimai binaların güc əmsalı" üzrə:

3.2.1. 27-ci sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 27. | İşıq diodlarının gücünə uyğun, Vt: | |

3.2.2. 28-ci, 29-cu və 30-cu sətirlər müvafiq olaraq 31-ci, 32-ci və 33-cü sətirlər hesab edilsin və aşağıdakı məzmunda 28-ci, 29-cu və 30-cu sətirlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 28. | 8 Vt-dan aşağı | 0,7 |
| 29. | 8 Vt-dan 20 Vt-dək (20 Vt daxil olmaqla) | 0,85 |
| 30. | 20 Vt-dan yüksək | 0,9 |

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 dekabr tarixli 560 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1464) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatının siqnalizasiya Təlimatı"nın 3.3-cü bəndinin birinci cümləsindən "və ya közərmə lampalarından" sözləri çıxarılsın.

5. Keçid müddəa.

5.1. Bu Qərar 60 Vt və yuxarı gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# YAP nümayəndə heyətinin Kuba Respublikasına səfəri başa çatıb

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Kuba Respublikasına səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, xarici ticarət və xarici investisiyalar naziri Oskar Perez-Oliva Fraqa ilə görüşü keçirilib.**






Görüş zamanı Ümummilli Lider Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında tarixi əhəmiyyətə malik müstəsna rolu qeyd olunub. Bu gün dövlət başçılarının məqsədyönlü siyasəti sayəsində ikitərəfli münasibətlərin inkişafının diqqət mərkəzində olduğu vurğulanıb.

İqtisadi-ticari, turizm, səhiyyə, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, prioritet hədəflərin reallığa çevrilməsi üçün önəmli potensialın olduğu bildirilərək qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Kuba Kommunist Partiyası (KKP) Siyasi Bürosunun üzvü, Kuba Qadınlar Federasiyasının Baş katibi Teresa Amareye Bouye və KKP Mərkəzi Komitəsinin üzvü, Gənc Kommunistlər İttifaqının Baş katibi Meyvis Estevez Eçeveria ilə də görüşləri olub.

Görüşlərdə Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Kubaya səfərinin qarşılıqlı faydalı olacağına və hərtərəfli əməkdaşlığa stimul verərək Azərbaycan-Kuba münasibətlərinə dinamizm gətirəcəyinə əminlik ifadə olunub. Bildirilib ki, YAP ilə KKP arasında Əməkdaşlıq Sazişinin imzalanması dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarının möhkəmləndirilməsi və işbirliyinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından çox önəmlidir.

Görüşlər zamanı həmçinin hər iki ölkədə həyata keçirilən gənclər siyasətindən, o cümlədən gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlərdən bəhs olunaraq bu sahədə təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb. Əməkdaşlıq Sazişinin icrasının hər iki partiyanın gəncləri arasında əlaqələri gücləndirəcəyinə inam ifadə olunaraq daimi təmaslar fonunda ortaq layihələrin təşkilinin önəmi qeyd edilib.

Nümayəndə heyətinin FIHAV ("Expocuba") sərgisinə ziyarəti də təşkil olunub.

Səfər noyabrın 27-də başa çatıb.

***"Azərbaycan"***

# Bakıda TDT-yə üzv ölkələrin tibb bacısı və mamalıq sahələri üzrə I Beynəlxalq elmi-praktik konfransı keçirilib

Bakıda Səhiyyə Nazirliyinin dəstəyi və nazirliyin 2 nömrəli Bakı Baza Tibb Kollecinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin tibb bacısı və mamalıq sahələri üzrə I Beynəlxalq elmi-praktik konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, beynəlxalq tədbirdə dövlət qurumlarının rəhbər şəxsləri, deputatlar, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın ölkəmizdəki səfirləri, səhiyyə sektorunun rəsmi nümayəndələri, Azərbaycanda və xaricdə fəaliyyət göstərən ali və orta tibb təhsili müəssisələrinin təmsilçiləri, aparıcı səhiyyə müəssisələrinin rəhbərləri, həmçinin Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrinin səhiyyə sahəsində tanınmış elm adamları iştirak ediblər.

Əvvəlcə beynəlxalq konfransın iştirakçıları Fəxri xiyabana gələrək, Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də tər çiçəklər düzülüb.

Qonaqlar Şəhidlər xiyabanını ziyarət edərək, şəhidlərin xatirəsini hörmət və ehtiramla anıb, "Əbədi məşəl" abidəsinin önünə tər gül dəstələri düzüblər.

Beynəlxalq elmi-praktik konfransın iştirakçıları, həmçinin Zəfər Parkını ziyarət ediblər. Qonaqlara Vətən müharibəsindəki tarixi Qələbəmizi əks etdirən ekspozisiya barədə məlumat verilib və abidə önünə gül dəstələri qoyulub.

Daha sonra Türk Dövlətləri Təşkilatına üzv ölkələrin tibb bacısı və mamalıq sahələri üzrə I Beynəlxalq elmi-praktik konfransının açılış mərasimi keçirilib.

Çıxış edən səhiyyə naziri Teymur Musayev tədbirin mahiyyətini vurğulayaraq, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda tibb təhsilinə böyük diqqət yetirdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyevin müdrik siyasəti və gərgin zəhməti sayəsində hər sahənin inkişaf etdiyini vurğulayan nazir deyib: "Bu tərəqqi ölkə səhiyyəsinin timsalında bariz şəkildə görünür. Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın irəli sürdüyü humanitar təşəbbüslər və qayğıya ehtiyacı olan şəxslərə sonsuz diqqəti bu sahənin inkişafında mühüm rol oynayır".

Teymur Musayev Ulu Öndərin göstərişi ilə inşa olunan 2 nömrəli Bakı Baza Tibb Kollecinin kollektivinin orta ixtisas tibb kadrlarının müasir tələblərə uyğun səviyyədə hazırlanması yolunda yorulmadan çalışdığını diqqətə çatdırıb.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov TDT-nin üzv ölkələrinin tibb bacısı və mamalıq sahələri üzrə I Beynəlxalq elmi-praktik konfransının Bakıda keçirilməsinin önəmindən söz açıb. Səhiyyə Nazirliyinin 2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru Dilarə Məmmədəliyeva çıxışında qeyd edib ki, konfransın məqsədi tibb bacıları və mamaların səhiyyədə oynadığı mühüm rolu vurğulamaq, onların peşəkar inkişafının dəstəklənməsinə şərait yaratmaq və bu sahələrin inkişafı ilə bağlı aktual məsələlərin müzakirəsini təmin etməkdir.

Sonra Türkiyə səfiri Birol Akgün, Özbəkistan səfiri Baxrom Aşrafxanov, Qazaxıstan səfiri Alim Bayel və Qırğızıstanın səfiri Maksat Mamıtkanov çıxış ediblər. Vurğulanıb ki, xalqlarımız arasında mövcud olan tarixi və mədəni ortaqlıqlar dövlətlər arasında əlaqələrin əsasını təşkil edir. Eyni zamanda dövlət başçıları arasındakı dostluq əlaqələri bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir. Tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən səfirlər, elmi-praktik konfransın işinə uğurlar arzulayıblar.

Daha sonra türk dövlətlərinin inkişafını və Azərbaycanda səhiyyə sahəsində əldə olunan nailiyyətləri əks etdirən qısa videoçarxlar nümayiş olunub.

Beynəlxalq konfransda çıxış edən Türkiyənin Ege Universiteti Sağlamlıq Elmləri Fakültəsinin dekanı Esin Çeber Turfan, Özbəkistan Səhiyyə Nazirliyinin Tibb Bacısı İşi üzrə baş mütəxəssisi Rixsi Salixodjayeva, Qazaxıstanın "EMİLİ" Ali Tibb Kollecinin direktoru Nurjan Bijanov, Qırğızıstanın Bişkek Ali Tibb kollecinin direktoru Çolpon Usubaliyeva və digərləri tədbirin Azərbaycanda keçirilməsindən məmnunluqlarını ifadə ediblər. Onların sözlərinə görə, bu cür tədbirlər türk dövlətlərinin səhiyyəsində son illərdə əldə olunan nailiyyətləri paylaşmasına, həm də təcrübə mübadiləsinin aparmasına imkan yaradır.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.

Daha sonra beynəlxalq elmi-praktiki konfransda panel sessiyalar keçirilib. Sessiyalarda "Azərbaycanda tibb bacısı (qardaşı) və mamalıq ixtisasları üzrə mütəxəssislərin hazırlığı və təhsilin inkişaf istiqamətləri", "Tibb bacısı və mamalıq təhsilində rəqəmsallaşma və süni intellektin rolu", "Mamalıq təhsilində keyfiyyətin təminatı: beynəlxalq standartlar" və digər məruzələr dinlənilib.

Sonra məruzələr ətrafında geniş müzakirələr aparılıb, mövzuya dair suallar cavablandırılıb.

Konfransın sonunda məruzəçilərə və xarici qonaqlara sertifikatlar təqdim olunub.

# Daxili işlər naziri gənclərin sırasından seçim edib



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 166 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 9 nəfəri Vətən müharibəsi iştirakçısıdır. Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# Əmək və əhalinin sosial müdafiəsi naziri İmişlidə vətəndaşların müraciətlərini dinləyib

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev İmişli rayonunda İmişli və Beyləqan rayonlarının sakinlərini qəbul edib.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Anar Əliyev və İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Həmin vətəndaşlar məşğulluq, əlillik, pensiya, mənzil təminatı, ünvanlı sosial yardım və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb. Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

Anar Əliyev və Elçin Rzayev İmişli rayon sakinləri - müharibə veteranı İsayev Emil Rövşən oğlu, Həsənov Sərxan Xanoğlan oğlu və İsmayılov Ərşad Çingiz oğlu üçün özünüməşğulluq proqramı çərçivəsində qurulmuş kiçik təsərrüfatlara baxış keçiriblər.

Proqramın dəstəyi ilə aktivlər verilməklə Emil İsayev və Sərxan Həsənov üçün kişi bərbərxanası, Ərşad İsmayılov üçün isə avtoçilingər xidmətləri üzrə kiçik təsərrüfatlar qurulub. Onlar öz təsərrüfatlarını yaratmaq üçün göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, ötən dövrdə özünüməşğulluq proqramı çərçivəsində İmişli rayonunda 1700-dən çox şəxs üçün kiçik təsərrüfatlar qurulub.

# Ermənistan vətəndaşlarının məhkəməsində 6 təqsirləndirilən şəxsin vəkili müdafiə çıxışı edib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 27-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmədə təqsirləndirilən şəxslərin müdafiəçilərinin çıxışı başlayıb.

Təqsirləndirilən Qurgen Stepanyanın müdafiəçisi Zümrüd Səmədova çıxışının əvvəlində xatırladıb ki, dövlət ittihamını müdafiə edən prokuror Q.Stepanyanın 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilməsini məhkəmədən xahiş edib. Müdafiəçi bildirib ki, təqsirləndirilən şəxs özünü elan edilmiş ittihamlarda təqsirli bilmir. Onun sözlərinə görə, Q.Stepanyan məhkəmə istintaqı zamanı verdiyi ifadəsində göstərdiyi kimi, 2005-2007-ci illərdə Hadrut qəsəbəsində müddətli həqiqi hərbi qulluqçu kimi xidmət edib, 2023-cü ildə isə döyüş postuna aparılıb.

Vəkil deyib ki, 2023-cü il sentyabrın 19-da o, mövqeyini tərk edərək Xankəndi şəhərinə qaçıb və yolda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları ilə rastlaşaraq onlara təslim olub.

"Müdafiə tərəfi olaraq hesab edirəm ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 42.1.4-cü maddəsinə əsasən şəxsin təqsirliliyi sübuta yetirilmədiyi əsası ilə ona bəraət verilməlidir. Odur ki, məhkəmədən həmin maddəni əsas götürməklə təqsirləndirilən şəxsə bəraət verilməsini xahiş edirəm", - deyə vəkil əlavə edib.

Q.Stepanyanın digər vəkili Rafiq Kərimov da hüquqlarını müdafiə etdiyi şəxsə bəraət verilməsini məhkəmədən xahiş edib.

Təqsirləndirilən Vasili Beqlaryanın müdafiəçisi Əzizağa Qafarov çıxışında qeyd edib ki, hüquqlarını qoruduğu şəxs qeyd edilən cinayət hadisələrinin törədilməsində təqsirli deyil. Vəkil söyləyib ki, V.Beqlaryan 2012-2013-cü illərdə Ağdərə ərazisində müddətli həqiqi hərbi qulluqçu - əsgər kimi xidmət keçib. Onun sözlərinə görə, V.Beqlaryan 2022-ci ildə Xankəndi şəhərində yerləşən hərbi birləşmədə müddətdən artıq hərbi qulluqçu, əsgər kimi 3 illik müqavilə imzalayıb və bir neçə dəfə Çərəkdar kəndi istiqamətində yerləşən döyüş mövqeyinə göndərilərək orada silahlı növbətçilik çəkib.

Müdafiəçi deyib ki, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi 3 il müddətinə müqavilə imzalayaraq Xankəndi şəhərində yerləşən hərbi birləşmədə xidmət etməsi faktının təqsir qismində Vasili Beqlaryana şamil edilməsi ədalətli və qanuni sayıla bilməz. Belə ki, həmin dövrdə onun xidmət keçməsi könüllü xarakter daşısa da, bu, onun iş tapa bilməməsi, müqavilə əsasında əməkhaqqı alması məqsədilə edilib. Müdafiəçi deyib ki, qeyd edilən dəlil təqsirləndirilən şəxsin ifadəsi ilə də sübuta yetirilir.

O qeyd edib ki, V.Beqlaryan tutulduğu vaxtdan, yəni 2023-cü il sentyabrın 26-dan indiyədək, elan olunmuş ittihamlarla bağlı özünü təqsirli bilməyib.

Müdafiəçi V.Beqlaryan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Arkadi Qukasyanın müdafiəçisi Pərvanə Qasımova çıxışında bildirib ki, hüquqlarını müdafiə etdiyi şəxs cinayətkar birliyin üzvü olmayıb. O, ittiham tərəfinin sübutlarını qəbul etmədiklərini söyləyərək, A.Qukasyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

A.Qukasyanın digər vəkili Nailə Tağıyeva da müdafiə etdiyi şəxs barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs David Manukyanın müdafiəçisi Valeh Qurbanov deyib ki, hüquqlarını qoruduğu şəxs özünü təqsirli bilmir, eləcə də özünü heç bir cinayətkar birliyin üzvü hesab etmir. Vəkil daha sonra söyləyib: "David Manukyan heç bir qanunsuz silahlı dəstənin yaradıcısı və üzvü olmayıb. O, hərbçi olub, hərbi təlimat əsasında fəaliyyət göstərib".

Müdafiəçi bildirib ki, baş verənlərdə əsas təqsirkar Ermənistanın siyasi-hərbi rəhbərliyidir.

O, D.Manukyanın mövqeyini müdafiə etdiyini bildirərək barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən David Babayanın vəkili Çingiz Mansurov hüquqlarını müdafiə etdiyi şəxsin 2023-cü ilin sentyabr ayında Azərbaycan hərbçilərinə könüllü şəkildə təslim olduğunu söyləyib. Müdafiəçi deyib ki, D.Babayan özünü elan olunmuş ittihamlarda təqsirli bilmir. O, təqsirləndirilən şəxsin barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs Madat Babayanın müdafiəçisi Leyla Namazzadə çıxışında deyib ki, 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında Azərbaycan helikopterinin vurulması nəticəsində ölkəmizin dövlət xadimlərinin həyatına suiqəsd etmə epizodu üzrə M.Babayana bəraət verilməlidir. O bildirib ki, M.Babayan həmin dövrdə Ağdərə və Tərtər istiqamətində postlarda xidmət edib və odlu silahdan canlı hədəflərə qarşı heç bir atəş açmayıb, yalnız açıq havaya atəşlər açıb.

Vəkil daha sonra deyib: "Hüquqlarını müdafiə etdiyim Madat Babayan istintaqa səmimi ifadə verib və məhkəmə istintaqı zamanı istintaqda verdiyi ifadəni iki dəfə təsdiqləyib. Onun verdiyi səmimi ifadə və iti yaddaşı nəticəsində Xocalı ərazisindən özünün birbaşa göstərdiyi nöqtələrdən Xocalı soyqırımı zamanı qətlə yetirilmiş şəxslərin qalıqları aşkar olunub, şəxsiyyətləri müəyyən olunduqdan sonra ailələrinə təhvil verilib. Qətlə yetirilmiş soydaşlarımız 30 ildən sonra adət-ənənəmizə uyğun qaydada dəfn olunub. Hüquqlarını müdafiə etdiyim şəxs Xocalı hadisələrində iştirak etsə də, heç kimi öldürməyib, mülki şəxslərə atəş açmayıb, o, sıravi əsgər kimi xidmət edib. Madat Babayan 1991-1994-cü illərdə Azərbaycan xalqına qarşı etnik təmizlənmədə, o cümlədən Xocalı hadisələrində verilən işgəncələrə yalnız şahidlik etdiyindən səmimi peşmandır. Buna görə Azərbaycan xalqından və Azərbaycan Respublikasının Prezidentindən üzr istəyir".

Müdafiəçi təqsirləndirilən şəxsin ittiham olunduğu epizodlar üzrə bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

M.Babayanın digər müdafiəçisi Elnur Vəliyev də özündən əvvəl çıxış etmiş müdafiəçinin çıxışında göstərdiyi xüsusatlarla razılaşdığını bildirib.

Məhkəmə prosesi dekabrın 4-də davam etdiriləcək.

# Azərbaycan ilə BƏƏ arasında ədliyyə sahəsində əməkdaşlıq genişlənir

Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ədliyyə naziri Abdullah bin Sultan bin Avad əl-Nuaimi ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, görüş çərçivəsində iki ölkə arasında ədliyyə sahəsində münasibətlərin inkişafı üçün mövcud olan hüquqi bazanın əhəmiyyəti diqqətə çatdırılıb. Ədliyyə nazirlikləri arasında anlaşma memorandumunun icrasını dəstəkləyəcək yeni əməkdaşlıq proqramının imzalanması müzakirə edilib, bu sənədin hüquqi əməkdaşlığın genişləndirilməsinə əlavə töhfə verəcəyi bildirilib.

Azərbaycan tərəfi ədliyyə sistemində rəqəmsallaşma və süni intellektin tətbiqinin genişləndirilməsi, xidmətlərin operativliyi və səmərəliliyinin artırılması istiqamətində görülən işlərdən bəhs edib və bu sahədə ən yaxşı beynəlxalq təcrübənin öyrənilməsində maraqlı olduğunu ifadə edib.

Ölkələr arasında hüquqi əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədilə qarşılıqlı səfərlərin, eləcə də təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyi vurğulanıb.

# "Kurort Naftalan"da şərait yaxşılaşdırılıb











**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən həmkarlar ittifaqı üzvlərinin sağlamlığının qorunması və mənalı istirahəti üçün ardıcıl və sistemli tədbirlər davam etdirilir, müalicə-sağlamlıq mərkəzlərində şərait yaxşılaşdırılır.**

Müalicə-sağlamlıq turizmi sahəsində beynəlxalq səviyyədə tanınan Naftalan şəhərində yerləşən AHİK-in "Kurort Naftalan" sağlamlıq mərkəzində də şərait yaxşılaşdırılıb, infrastruktur yenilənib, müasir avadanlıqlarla təchiz edilib.

Bu günlərdə AHİK-in və dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları sağlamlıq mərkəzində görülən işlərlə tanış olublar. Tədbirdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədr müavini Elşad Musayev, səhiyyə nazirinin müavini Rasim İsmayılov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev, yerli icra hakimiyyətinin nümayəndələri və digər şəxslər iştirak ediblər.

Tədbir iştirakçılarına məlumat verilib ki, mərkəzin yataq korpusu müasir tələblərə uyğun yenidən qurulub, otaqlar yeni avadanlıqlarla təchiz edilib. Korpusda ümumilikdə 50 çarpayıdan ibarət 26 otaq var. Bundan əlavə, burada həkim, masaj və vanna otaqları, fizioterapiya kabinetləri və yeməkxana müalicə alanların xidmətindədir.

Sağlamlıq mərkəzinin müalicə korpusunda da şərait yaxşılaşdırılıb və müasir tibbi avadanlıqlarla təmin edilib. Korpusda müayinə, masaj, fizioterapiya, parafin terapiyası və karbon terapiyası otaqları, inqalyasiya bölməsi, idman zalı və müxtəlif profilli tibbi kabinetlər fəaliyyət göstərir.

Ərazidə infrastrukturun yenilənməsi işləri də aparılıb, daxili yollara yeni asfalt örtüyü salınıb. Sağlamlıq mərkəzi Wi-Fi internet, IP telefoniya və təhlükəsizlik kameraları ilə təmin edilib. Mərkəzin ərazisində ağac və bəzək kolları əkilib.

Qeyd edək ki, "Kurort Naftalan"ın müalicə bazası dayaq-hərəkət sistemi və dermatoloji xəstəliklərin müalicəsi üçün müasir - 4-cü nəsil tibbi avadanlıqlarla təmin olunmuş fizioterapiya xidmətlərini, həmçinin müalicəvi naftalan nefti əsasında həyata keçirilən vanna prosedurlarını əhatə edir. Mərkəzin xidmətlərinə naftalan vannaları, kombinə edilmiş naftalan müalicə prosedurları, manual terapiya, parafin terapiyası, su-fizioterapiya (hidroterapiya), inqalyasiya və digər müalicə prosedurları daxildir.

Tədbir iştirakçıları sağlamlıq mərkəzində yaradılan şəraiti, müalicə və istirahət imkanlarını yüksək qiymətləndiriblər.

***Bəhman MİRZƏYEV,***
*"Azərbaycan"*





# SINAQ

## Ümumxalq məhəbbəti daim bütün xain niyyətlərdən yüksəkdə dayanıb

Həyat göstərir ki, süni şəkildə, müxtəlif üsul və vasitələrlə xalqın məhəbbətini qazanmaq mümkün olmur!

Xalq hər şeyi görür, bilir və müdrikcəsinə qiymətləndirir!

Məhz buna görə də "elin gözü mizan-tərəzidir" deyirlər.

**Bəli, xalq öz övladlarını, liderlərini, rəhbərlərini gördükləri işlərə görə dəyərləndirib sevir.**

Yaxın keçmişimizdə dəfələrlə bunun şahidinə çevrilmişik.

❖ ❖ ❖

Sovet dövründə küçə nümayişlərinə yalnız dövlətin müəyyən etdiyi günlərdə, həm də dövlətin gördüyü işləri, ən əsası Sov.İKP-ni tərif və təbliğ etmək üçün çıxmaq olardı.

*Məsələn:*

Böyük oktyabr sosialist inqilabının ildönümləri günlərində - hər ilin 7 noyabrında.

Yaxud, "dünya zəhmətkeşlərinin beynəlxalq həmrəyliyi günü" sayılan 1 mayda.

Sovet "demokratiya"sı yalnız buna icazə verirdi.

**Özbaşına küçələrə çıxıb nəyəsə etiraz etmək istəyənlər çox ciddi cəzalandırılırdı.**

*Yalnız SSRİ-nin birinci və sonuncu prezidenti olan M.Qorbaçovun "yenidənqurma" adlı oyunu başlayanda, "sovet demokratiyasının təntənəsini göstərməkdən ötrü" mitinq və piketlərə icazə verildi.*

**Bu "demokratiya və aşkarlıq" isə qırmızı imperiyanın dağılması ilə nəticələndi.**

❖ ❖ ❖

Yenidənqurmanın yaratdığı "demokratik imkan"dan istifadə edən Azərbaycan xalqı Qarabağda baş verənlərə kəskin və açıq etirazını bildirmək üçün meydana çıxırdı.

Artıq Moskva qırmızı imperiyanın laxladığını, SSRİ-nin dağılmağa başladığını hiss edirdi.

"Böyük qardaş" öz rolunu və imkanlarını saxlamaq üçün müxtəlif üsul və vasitələrə əl atırdı.

*"Müstəqil Dövlətlər Birliyi"nin (MDB) yaradılması belə formalardan biri idi.*

*Lakin onun vasitəsilə müttəfiq respublikalara əvvəlki qaydada təsir etmək mümkün olmadı.*

**Xüsusən Azərbaycan kimi zəngin təbii ehtiyatlara malik bir ölkədə!**

**Odur ki, Azərbaycana qarşı ənənəvi təzyiq üsulundan, "Qarabağ münaqişəsi"ndən istifadəyə start verildi.**

"Gecpartlayan bomba" kimi Azərbaycanın ərazisində yaradılan keçmiş DQMV-dəki erməni separatçıları fəallaşdırıldı, onlara təkcə mənəvi deyil, hərbi-maliyyə və ideoloji dəstək də verilməyə başladı.

- Guya onların iqtisadi durumu pisdir.
- Guya onların milli azlıq olaraq hüquqları pozulur.
- Guya onların başqa dövlət daxilində özlərinə yeni dövlət qurmaq "hüquqlar"ı var və s.

**Ancaq bütün bunlar reallıqda Azərbaycana təzyiq göstərmək, onu itaətdə saxlamaq, öz iradəsini daim qəbul etdirmək niyyətinə xidmət edirdi.**

"Ac toyuq yuxusunda darı görər" demişlər.

Özündən və xalqın ona münasibətindən xəbərsiz olanlar hərdən xam xəyallara düşə bilərlər.

*Azərbaycan xalqı heç zaman öz müstəqilliyini kiminsə qoltuğuna qısılmağa dəyişməz!*

*Belə yolu tutan dövlətlərin aqibətinin necə olduğunu da bütün dünya görür və bilir.*

Hələ bu da hamısı deyildi.

❖ ❖ ❖

XX əsrin sonları və XXI əsr təkcə dünyada yeni bir sistemə çevrilən kommunizmin iflası, ilk sosialist dövləti sayılan SSRİ-nin dağılması və sosializm yolunu seçən bir sıra Avropa dövlətlərinin bundan imtinası ilə əlamətdar deyildi!

**Bu dövr həm də ABŞ-nin milyarderi Sorosun və USAID-in (ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi) bir sıra ölkələrdə "5-ci kolon" yaratmaqla çevrilişlər törətməsi, bəzi dövlətlərdə "rəngli inqilab"ların və "ərəb baharları"nın baş tutması ilə əlamətdar oldu.**

*"Demokratiya yaradılması", "insan haqlarının qorunması"adı ilə ölkələrin daxilinə nüfuz edən, orada antimilli qüvvələri pulla ələ alaraq çevrilişlər törədən və nəticədə özlərinə sərf edən, idarə olunan "rəhbər"ləri hakimiyyətə gətirərək bu yolla həmin ölkələrdən istədiklərini alaraq, istədiyini etmək bu sayaq çevrilişlərin və inqilabların əsas məqsədi idi.*

Əsl azadlıq və demokratiyanın olmadığı SSRİ-də isə keçmiş müttəfiq respublikalarda belə oyunlar daha asanlıqla baş tuturdu.

Xüsusən xalqın sevdiyi təcrübəli rəhbərlərin olmadığı yerlərdə!

**Demək olar ki, keçmiş SSRİ-yə daxil olan bütün müttəfiq respublikalarda bu oyunlar baş tutdu, dəfələrlə "meydandan" gələnlər hakimiyyəti ələ keçirdilər.**

Amma sonradan ölkə əhalisi həmin çevrilişlərin ağrı-acılarını uzun müddət yaşamalı oldu.

❖ ❖ ❖

Ötən əsrin "çalxalanma" dövründə əvvəlki qaydalar əsasında mərkəzdən Azərbaycana dünyada gedən proseslərdən baş çıxarmayan, heç bir idarəetmə təcrübəsi olmayan, milli təəssübkeşlikdən uzaq və xaraktercə maymaq Ə.Vəzirov rəhbər təyin olunmuşdu.

Qul psixologiyalı bu insan Moskvaya sözsüz tabe olaraq Qarabağdakı proseslərə ermənilərin mövqeyindən dəstək verməyə hər an hazır idi və verirdi də!

Odur ki, 20 yanvar 1990-cı ildə baş verən qanlı qırğınların da əsas səbəbkarlarından birinə çevrildi.

**Nəticədə xalqın qəzəbindən qorxaraq hərbi təyyarəyə minib Moskvaya qaçdı.**

"Uğursuz rəhbər"in davamçısı A.Mütəllibov da eyni aqibəti yaşadı.

SSRİ-nin dağıldığı bir vaxtda A.Mütəllibov Moskvanın göstərişi ilə ittifaqın qorunması barədə respublikada "ümumxalq referendumu" keçirdi.

Təbii ki, xalqın iradəsini ifadə etməyən referendumun nəticələri saxtalaşdırılsa da belə, uzun müddət davam gətirə bilməzdi.

**Bu dövrdə Moskvanın yerlərdə uğurla tətbiq etdiyi "xalq cəbhəsi" layihəsi də vardı.**

Yoxsa, "hər şeydən xəbərdar" "KQB"nin (Dövlət Təhlükəsizliyi Komitəsinin) mövcudluğu şəraitində kimlərsə özbaşına təşkilat yarada, dövlət xəttinə zidd fəaliyyət göstərə, hətta "gizli" qəzet belə çıxara bilməzdi.

*Doxsanıncı illərdə Azərbaycanın digər respublikalardan əsas fərqi Qarabağ probleminin mövcudluğu və separatizm hərəkatının mərkəz tərəfindən körüklənməsi sayılırdı.*

Xalq bu mənfur niyyətlərə və haqsızlıqlara qarşı etiraz səsini ucaldaraq Bakının və bəzən digər rayonların baş meydanlarına toplaşır, etiraz səsini ucaldırdı.

**Azərbaycan Xalq Cəbhəsi də xalq hərəkatının etiraz dalğaları üzərində meydana çıxdı.**

**Uzun müddət Bakının baş meydanına toplaşaraq etiraz mitinqləri keçirməklə "meydan qəhrəmanı"na çevrildi.**

*Bir qədər sonra xalqın Qarabağdakı hadisələrə "etirazının ifadəçisi" olan "cəbhəçi"lər hakimiyyəti ələ keçirmək imkanının mövcudluğunu hiss edərək hədəflərini bu yönə dəyişdilər.*

Onlar televiziya vasitəsilə bütün ölkəyə translyasiya olunan mitinqlərdə özlərini "Qarabağın müdafiəçiləri" qismində təqdim edərək müəyyən müsbət reytinq də toplaya bildilər.

Bir qədər keçəndən sonra isə meydan hərəkatının dalğalarında hakimiyyətə gəlmək istəklərinin reallaşdırılmasına girişdilər.

Bununla da əsl faciələri başladı...

❖ ❖ ❖

*Xalq arasında nüfuzu və dəstəyi olmayan, qorxaq və yanlış siyasət yürüdən, Moskvaya açıq tabeçilik göstərən A.Mütəllibov AXC tərəfindən parlament çevrilişi yolu ilə devrildikdən sonra Moskvaya qaçdı.*

**Bu, AXC-nin birinci və sonuncu qələbəsi oldu.**

*İqtidarda olduqları müddətdə "bəylər" özlərini naşı və səriştəsiz apardılar, yalnız şəxsi maraqlarını güddülər, xarici siyasətdə çoxsaylı kobud səhvlərə yol verdilər, ölkə iqtisadiyyatını dağıdaraq bərbad günə qoydular, döşlərinə döysələr də, Qarabağla bağlı heç bir müsbət iş görə bilmədilər, əksinə, atdıqları yanlış addımlar sayəsində torpaqların işğalına şərait yaratdılar.*

**Xalqın etimad və etibarı limitini çox qısa müddətdə xərcləyərək gözdən düşdülər, ən fərsiz iqtidara çevrilərək ölkədə özbaşınalıq, anarxiya və qanunsuzluq mühitinin yaranmasına səbəb oldular.**

*Öz yetirmələri, "qiyamçı polkovnik" Surət Hüseynov dəstəsi ilə Bakıya üz tutaraq onları Azadlıq meydanında asacağı ilə hədələyəndə isə "vəzifələrini donduraraq" hərəsi bir tərəfə qaçıb gizləndilər.*

Xalqın dəstəyini itirənlər, təbii ki, daha xalqa güvənməklə iqtidarda duruş gətirə bilməzdilər!

**Beləliklə, xalqdan ayrı düşərək onun iradəsini ifadə edə bilməyənlərin sonu biabırçılıqla qurtardı.**

İlk sınaq uğursuzluqla nəticələndi.

❖ ❖ ❖

*Tarixinin ən ağır dövrlərindən birini yaşayan Azərbaycan xalqı bu dəfə üzünü sınanmış övladına, görkəmli dövlət xadimi və dünya səviyyəli siyasətçi Heydər Əliyevə tutdu, onu yenidən ölkə rəhbərliyinə dəvət etdi.*

**Xalqın bu çağırışına biganə qalmayan Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdı.**

*Tarixən qısa bir müddətdə Ümummilli Lider Heydər Əliyev müharibə bölgəsində atəşkəsə nail oldu, xaos, anarxiya və özbaşınalıqlara son qoydu, ölkədə möhkəm və dönməz sabitlik yaradaraq Azərbaycanın müstəqilliyini əbədiliyə çevirdi.*

Lakin özgələrinin əlində alətə çevrilənlər yenə sakit dayanmadılar.

**Surət Hüseynov yenidən dövlət çevrilişinə cəhd etdi.**

Bu dəfə daş qayaya rast gəlmişdi!

*Ulu Öndər Heydər Əliyev adi rəhbərlərdən deyildi!*

*O, xaraktercə qorxmaz, iradəcə möhkəm, zəngin həyat təcrübəsinə malik dahi siyasətçi və xalqın ən yüksək dəstəyinə güvənən dövlət xadimi idi!*

**"Mən ömrümün yerdə qalan hissəsini də xalqıma bağışlamışam" söyləyərək ali postunda möhkəm dayandı!**

Sonra xalqına müraciət edərək müstəqilliyimizi qoruyub saxlamaq üçün ondan kömək istədi.

*4 oktyabr 1994-cü ildə axşam paytaxt Bakıda yaşına və cinsinə baxmayaraq, çoxsaylı insan sevimli rəhbərinin çağırışına cavab olaraq Prezident Administrasiyasının qarşısına toplaşdı.*

**Sonrakı günlərdə də Heydər Əliyevə ümumxalq dəstəyi kütləvi şəkildə davam etdi!**

Budəfəki sınaqdan xalqın sevimli rəhbəri qalib çıxdı, dövlət çevrilişi cəhdi baş tutmadı!

❖ ❖ ❖

*Azərbaycanı xaricdə istəməyənlər ölkə daxilindəki dönüklərə və xəyanətkarlara güvənərək, 13-18 mart 1995-ci ildə "omonçu" R.Cavadovun başçılığı ilə daha bir dövlət çevrilişinə cəhd göstərdilər.*

**Yenə Ulu Öndər Heydər Əliyev xalqına üz tutdu, onları xəyanətkarlara qarşı mübarizəyə çağırdı.**

Xalq eyni məhəbbət və fəallıqla sevimli rəhbərinin ətrafına toplaşaraq qaragüruhçulara qarşı polad iradəsini ortaya qoydu!

**Heydər Əliyevin müdrikliyi, xalqın ona tükənməz sevgisi sayəsində dövlət çevrilişinə ikinci cəhd də uğursuzluğa düçar oldu!**

❖ ❖ ❖

Bəzən insanlar öz ağıl və bacarıqları, şəxsi intellektləri ilə bağlı yanlış, şişirdilmiş fikirdə olur, imkan və qabiliyyətlərini əsassız şəkildə yüksək təsəvvür edirlər.

Bu isə sonradan onlara biabırçı məğlubiyyət, utanc və iflas gətirir.

Hərdən tanınmış ziyalıların, müxtəlif sahələrdə müəyyən xidməti olan insanların kimlərəsə inanaraq və arxalanaraq gülünc oyunlara qurşanmaları təəssüf və təəccüb doğurur.

Belə oyunlardan biri 2009-cu ildə baş verdi.

**Azərbaycan xalqının bir neçə tanınmış insanı "Ziyalılar forumu" adlı bir qurum yaratdılar.**

Qurumun təşəbbüsçüsü isə, deyilənlərə inansaq, yazıçı R.İbrahimbəyov olmuşdu.

*Ancaq qurum fəaliyyətə başladıqdan sonra onun ziyalılığa dəxli olmayan işlərə qurşandığı bəlli oldu.*

Əslində, oradakıların bütün xalqın adından danışmağa səlahiyyətləri yox idi!

Qurumun üzvləri müxtəlif mətbu orqanlara müsahibələr verərək dövlətimizin gördüyü işlərə qara yaxmağa başladılar.

Amma bir dəfə də Azərbaycanın qazandığı nailiyyətlərdən danışmadılar, qarşılaşdığı problemlərdən söz açmadılar.

Qurumun fəal üzvlərindən sayılan Əkrəm Əylisli isə "Daş yuxular" adlı əsər yazaraq əsl simasını göstərdi.

**2013-cü ilin prezident seçkiləri ərəfəsində isə "Ziyalılar forumu"nun əsl sifəti göründü: məlum oldu ki, onlar seçkilərdə iştirak edərək R.İbrahimbəyovu prezident etmək istəyirmişlər.**

*Azərbaycan xalqı hərəni çalışdığı sahəyə görə tanıyır, yazıçı, şair, bəstəkar və digərlərini siyasətçi, dövlət başçısı kimi qəbul etmir.*

**Çünki AXC-Müsavat cütlüyünün iqtidarı dövründə belələrinin necə "işləyərək" xalqa "nə verdiklərinin" şahidi olub!**

Beləliklə, anti-Azərbaycan dairələrinin maraqlarına xidmət edən bu qondarma qurum da 2013-cü ildən etibarən tarixin qara arxivinə verildi.

❖ ❖ ❖

Tarixə ötəri ekskursumuzda bir daha aydın şəkildə gördük ki, Azərbaycan xalqı, adətən, iki halda meydana çıxıb:

- Qarabağla, ərazi bütövlüyümüzlə bağlı;
- Bir də sevimli rəhbəri çağırış edəndə!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağ problemini zəfərlə həll edərək artıq düşmənlərimizin əlindən "Qarabağ kartı"nı çıxarıb!**

*Xalqın ona sevgi və məhəbbəti, etibarı və tükənməz dəstəyi isə indiyədək görünməmiş bir səviyyəyə çatıb.*

Başı daşdan-daşa dəyən, dəfələrlə etibar edərək aldadılan Azərbaycan xalqı isə artıq ancaq sınadıqlarına, tarixin imtahanlarından şərəflə çıxanlara inanır!

**Şübhəsiz, ən çox inandığı, dəfələrlə sınadığı və hər dəfə daha çox dəyər verdiyi dövlət rəhbəri və siyasi lideri isə Müzəffər Ali Baş Komandan İlham Əliyevdir.**

*Cənab İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə dövləti və xalqı üçün etdiklərini qısa şəkildə sadalasaq, səbəbi hamıya bəlli olar.*

**Azərbaycana 22 illik rəhbərliyi dövründə Prezident İlham Əliyev:**

- Tarixinin ən qüdrətli Azərbaycanını yaratdı.
- Azərbaycanı dünya birliyinin nüfuzlu üzvlərindən birinə çevirdi.
- Azərbaycanı dünyada həm də idman ölkəsi kimi tanıtdı.
- İkiəsrlik tarixi olan Qarabağ problemini əbədilik həll etdi.

Belə ki:

- 30 illik işğala son qoyaraq erməni qəsbkarlarını torpaqlarımızdan qovdu, düşməni darmadağın edərək ona kapitulyasiya aktını imzalatdı.
- Ərazi bütövlüyümüzü bərpa etdi.
- Dövlət Suverenliyinin və Konstitusiya əsaslarının təmininə nail oldu!
- Xalqımızın milli birliyini təmin etdi.
- "Böyük qayıdış" proqramını qəbul edərək Qarabağı və Şərqi Zəngəzuru sürətlə yenidən tikib qurur.
- Müasirtipli yaşayış məntəqələri inşa etdirərək keçmiş məcburi köçkünləri doğma yurd-yuvalarına qaytarmaqla, xoşbəxt həyatlarını təmin edir.
- Azərbaycanı Cənubi Qafqazın söz sahibinə çevirərək burada sülh və əməkdaşlıq yaradır.
- Türk dünyasının möhkəm birliyinin yaranmasına dəyərli töhfələr verir.
- Azərbaycanı Avropa İttifaqının etibarlı tərəfdaşlarından birinə çevirir.

**Bütün bu işlərə layiqincə qiymət verən beynəlxalq aləm Azərbaycan Prezidentini dünyanın ən nüfuzlu və qlobal liderlərindən biri kimi tanıyır.**

Məhz İlham Əliyevin fəaliyyəti sayəsində ABŞ-Azərbaycan əlaqələri yeni yüksəliş və inkişaf dövrünə qədəm qoyub.

**Azərbaycan xalqı bütün bunları görür, bilir, öz rəhbəri ətrafında daim sıx birləşir.**

*İlham Əliyevin Qarabağa hər səfərində, keçmiş məcburi köçkünlərlə hər görüşündə biz xalqın sınanmış rəhbərinə sonsuz sevgi və ehtiramının şahidi oluruq!*

**Artıq bütün dünya qüdrətli Azərbaycanın qüdrətli rəhbəri İlham Əliyevlə hesablaşır, xalqının ona sevgi və dəstəyini birmənalı şəkildə qiymətləndirir.**

Bu birliyi, bu sevgini kimsə pozmaq, ona xələl gətirmək iqtidarında deyil!

Odur ki, heç kəs çaşaraq xam xəyallara düşməsin!

**Bəxtiyar SADIQOV**

# Azərbaycan ilə San-Marino arasında münasibətlərin mövcud vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb



Noyabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İtaliyaya rəsmi səfəri çərçivəsində San-Marinonun xarici işlər, siyasi məsələlər, beynəlxalq iqtisadi əməkdaşlıq və rəqəmsal keçid naziri Luka Bekkari ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə San-Marino arasında münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər iki ölkə arasında siyasi dialoqun genişləndirilməsi, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsi üçün imkanların mövcud olduğunu vurğulayıblar.

Nazirlər iqtisadi-ticarət əlaqələrinin dərinləşdirilməsi, investisiya imkanlarının araşdırılması, turizm, təhsil və humanitar sahələrdə əməkdaşlığın təşviqi üçün qarşılıqlı maraq ifadə ediblər. Nazir Ceyhun Bayramov Azərbaycanın regionda sülh və sabitlik naminə həyata keçirdiyi təşəbbüslər, Ermənistanla normallaşma prosesi, o cümlədən Vaşinqton Birgə Bəyannaməsi çərçivəsində əldə olunmuş razılaşmalar və işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə həmkarına məlumat verib.

Görüş zamanı həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, eləcə də Yaxın Şərqdə vəziyyət, Rusiya-Ukrayna münaqişəsi və qarşılıqlı maraq doğuran digər regional və qlobal məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# TDT Media Forumunda rəqəmsal media mühitində qarşılıqlı əməkdaşlıq imkanları haqqında danışılıb

Türk Dövlətləri Təşkilatının (TDT) Media Forumu çərçivəsində "Rəqəmsal media mühitində TDT-yə üzv dövlətlərin qarşılıqlı əməkdaşlıq imkanları" mövzusunda ikinci panel sessiya təşkil edilib.




AZƏRTAC xəbər verir ki, CBC telekanalının baş redaktoru Elmira Musazadənin moderatorluğu ilə keçirilən panel sessiyada Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, Milli Məclisin deputatı Sevil Mikayılova, "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyətinin "Balapan" telekanalının direktoru Makpal Ukenova, Türkiyənin ölkəmizdəki səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir, Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Məzmunun İstehsalı Mərkəzinin departament rəhbəri Tohir Umarov çıxış edərək rəqəmsal media mühitində əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, birgə kontent istehsalının təşviqi, informasiya mübadiləsinin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Paneldə vurğulanıb ki, rəqəmsal informasiya mühitində sürətlə baş verən dəyişikliklər TDT ölkələri arasında daha çevik və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq platformalarının qurulmasını zəruri edir. Qeyd olunub ki, ortaq rəqəmsal layihələrin icrası, informasiya axınının operativ idarə edilməsi və media qurumları arasında əlaqələrin möhkəmləndirilməsi üzv dövlətlərin kommunikasiya imkanlarını genişləndirə, regionda vahid və dinamik media məkanının formalaşmasına şərait yarada bilər.

Forum çərçivəsində həmçinin WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Media əlaqələri üzrə meneceri Eldar Rəsulov "Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası (WUF13) çərçivəsində media imkanları" mövzusunda təqdimatla çıxış edərək 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun dayanıqlı şəhər inkişafı, modern urbanistika və "ağıllı şəhər" konsepsiyalarının müzakirə ediləcəyi ən böyük qlobal platformalardan biri olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, WUF13 çərçivəsində media üçün geniş imkanlar yaradılacaq, jurnalistlər üçün yüksəksürətli internet, tam təchiz olunmuş iş masaları, press-konfrans və müsahibə otaqları ilə təmin olunmuş Media Mərkəzi fəaliyyət göstərəcək.

# Azərbaycan investisiya üçün cəlbedici məkandır

"Azərbaycan əlverişli investisiya mühiti nümayiş etdirir, azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa işləri isə xarici şirkətlərin, o cümlədən çex şirkətlərinin marağını artırır".



Bunu AZƏRTAC-a müsahibəsində Çexiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçek bildirib. Çexiya biznesinin Azərbaycandakı layihələrdə iştirak perspektivləri ilə bağlı suala cavab verən diplomat sahibkarlıq dairələrinin artan fəallığını qeyd edib. "Bu günlərdə artıq Çexiyadan onuncu biznes nümayəndə heyəti Azərbaycandadır. Bu gün Bakı Metropoliteninin nümayəndələri ilə görüşüm oldu, sabah nümayəndə heyəti Sumqayıta yola düşəcək və artıq növbəti gün yeni sahibkarlar qrupu gələcək", - deyə səfir söyləyib.

Diplomatın sözlərinə görə, Avropadakı iqtisadi vəziyyət bir çox şirkətləri qitə hüdudlarından kənarda yeni imkanlar axtarmağa vadar edir. Bu kontekstdə Azərbaycan cəlbedici istiqamət hesab olunur.

"Buradakı mühit, coğrafi mövqe və yaradılan şərait ölkəni Çexiya firmaları üçün çox maraqlı edir. Bu, təkcə energetika, neft və qaz sahələrinə aid deyil, digər istiqamətlər də diqqət mərkəzindədir. Lakin qeyd etmək istərdim ki, həmin sahələr hələ də aktual olaraq qalır. Biz əməkdaşlığın dinamikasından razıyıq və aktiv şəkildə çalışırıq", - deyə M. Sedlaçek vurğulayıb.

Səfir həmçinin "Caspian Energy Club" ilə səmərəli əməkdaşlığı diqqətə çəkərək, bu platformanın biznes əlaqələrin qurulmasındakı əhəmiyyətli roluna toxunub. "Biz "Caspian Energy Club" ilə çox yaxşı işləyirik. Onların Praqada filialının olması da birgə təşəbbüslərimizə əlavə dəstək verir", - diplomat əlavə edib.

# Bakıda TDT-nin Media və informasiya üzrə işçi qrupunun 12-ci iclası keçirilib

Noyabrın 27-də Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) Media və informasiya üzrə işçi qrupunun 12-ci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov TDT çərçivəsində media sahəsində həyata keçirilən birgə layihələrin, institusional əməkdaşlıq mexanizmlərinin və qarşılıqlı informasiya mübadiləsinin türkdilli dövlətlər arasında vahid və dayanıqlı kommunikasiya məkanının formalaşmasına mühüm töhfə verdiyini deyib. O vurğulayıb ki, iclasın gündəliyində əksini tapan məsələlər informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, dezinformasiya ilə mübarizədə birgə addımların koordinasiyası, strateji kommunikasiya bacarıqlarının inkişafı və media sahəsində ortaq təşəbbüslərin daha səmərəli şəkildə həyata keçirilməsi baxımından yeni imkanlar açır.

Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Ömer Kocaman çıxışında qeyd edib ki, müasir informasiya mühiti təkcə təhlükəsizlik baxımından deyil, həm də idarəetmə, planlaşdırma və dövlətlərarası koordinasiya cəhətdən yeni yanaşmalar tələb edir. Bildirilib ki, TDT çərçivəsində media qurumları arasında dialoqun artırılması, məlumat axınının sistemli şəkildə qurulması və digər önəmli məsələlər təşkilatın qarşıdakı illər üzrə əsas hədəflərindən biridir. Həmçinin diqqətə çatdırılıb ki, rəqəmsal transformasiyanın sürətləndiyi dövrdə media sahəsində qarşılıqlı fəaliyyət yalnız informasiyanın ötürülməsi ilə məhdudlaşmamalı, eyni zamanda innovativ yanaşmaların tətbiqi, yeni media alətlərinin potensialından istifadə və ortaq kommunikasiya mədəniyyətinin formalaşdırılması kimi istiqamətləri də əhatə etməlidir.

Daha sonra TDT-nin müvafiq sahə üzrə 2025-ci il üçün Fəaliyyət Planının icra vəziyyəti müzakirə edilib və 2026-cı il üçün uyğunlaşdırılaraq yenilənib. Həmçinin TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısının yekun sənədi olan Kommünike layihəsi ətrafında fikir mübadiləsi aparılıb, növbəti toplantının keçirilmə yeri və tarixlərinə dair təkliflərin müzakirəsi həyata keçirilib.

# TDT-nin Media Forumu çərçivəsində artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar müzakirə edilib

Noyabrın 27-də Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının Media Forumu çərçivəsində "Müasir dövrdə artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar: türk dövlətlərinin media ekosistemi nümunəsində" mövzusuna həsr olunmuş panel sessiya təşkil edilib.




AZƏRTAC xəbər verir ki, türkdilli dövlətlərin media və kommunikasiya sahəsində əməkdaşlığını möhkəmləndirmək məqsədilə keçirilən forumun panel müzakirəsinə "AnewZ" beynəlxalq televiziya kanalının icraçı direktoru Rüfət Həmzəyev moderatorluq edib.

Paneldə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli bildirib ki, media yarandığı gündən təhdidlər və təqiblərlə birgə formalaşıb. Medianın peşəkarlığı bu təhdidlər şəraitində böyüməsi və sağ qalmasıdır. O qeyd edib ki, süni intellekt əsaslı feyk xəbərlərin çoxalması medianın fəaliyyətində təhdidedici amillərdən biridir.

N.Məmmədli diqqətə çatdırıb ki, son illər ölkəmizin informasiya məkanına olan çoxsaylı təhdidlərin qarşısını almaq üçün hüquqi müstəvidə işlər yekunlaşıb: "Media haqqında" qanun informasiya məkanının qorunması üçün hüquqi qalxan rolunu oynayır. Biz bunun ilkin təzahürlərini görürük. İnsanların texnoloji bilikləri artdıqca və media savadlılığı yüksəldikcə onların təbliğatın təsirinə düşməsinin qarşısı alınır. Biz cəmiyyətin media savadlılığının artırılmasına xüsusi önəm veririk ki, yalan, feyk xəbərlərin təsirinə düşməsin. İnsanlar medianın məlumatına etibar etməlidirlər. Biz dünyada bu sahədə ciddi problemlər görürük. Media özünəinamı geri qaytarmalıdır. Eyni zamanda yeniliklərə açıq olmalıdır", - deyə o əlavə edib.

Qazaxıstan Respublikasının "Xabar" agentliyinin sədrinin müavini Dauletxan Jiyenkulov bildirib ki, dezinformasiyanın yayılmasının əsas məqsədi cəmiyyətdə formalaşan fikir və rəylərə təsir göstərmək, ictimai qavrayışı manipulyasiya etməkdir.

"Feyk məlumatlarla bağlı konkret bir misal çəkmək istəyirəm. Bu yaxınlarda Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ABŞ-yə səfər edib və orada ABŞ tərəfi ilə, o cümlədən Prezident Donald Trampla çox vacib sənədlər imzalayıb. Biz hər saat operativ şəkildə məlumat yayırdıq. Lakin təxminən 3-4 saat sonra sosial şəbəkələrdə bizim adımızdan yayılan saxta məlumatlar ortaya çıxmağa başladı. Ardınca ölkə başçısının Rusiyaya səfəri oldu və eyni şəkildə yenidən feyk xəbərlərin yayılmasının şahidi olduq. Bu, ilkin mənbədən götürülmüş məlumatların necə saxtalaşdırıldığına dair açıq bir nümunədir", - deyə Dauletxan Jiyenkulov qeyd edib.

O sonda əlavə edib ki, ümumiyyətlə, dezinformasiya olduqca təhlükəli bir vəziyyətdir və dövlətlərin informasiya təhlükəsizliyinə, ictimai sabitliyinə və qərarvermə proseslərinə ciddi təsir göstərir.

Qırğız Respublikasının Mədəniyyət, İnformasiya və Gənclər Siyasəti Nazirliyinin İnformasiya siyasəti departamentinin baş mütəxəssisi Zarina Kalmuratovanın fikrincə, media savadlılığı düzgün məlumatı yanlışdan ayırmaqla məhdudlaşmır. Buraya, həmçinin biz nəyi yayırıq, tənqid əsasında düşünə bilirikmi, məlumatı bizə təqdim edilən şəkildə uduruq, yoxsa başqa tərəfdən yanaşırıq kimi məsələlər də daxildir. İnformasiyanı həzm etməyi bacarmaq lazımdır. O bildirib ki, bu gün rəqəmsal media savadlılığı, süni intellektin təsiri və informasiya təhlükəsizliyi xüsusi önəm daşıyır. Məhz buna görə də TDT-nin işçi qrupu media savadlılığının artırılmasını öz fəaliyyət planına daxil edib. Bu addım heç də təsadüfi deyil və müasir informasiya mühitinin çağırışlarına cavab verir.

"Qırğızıstanda feyk məlumatlardan qorunmaq haqqında qanun var. Bu sənəd artıq üç ildir qüvvədədir. İnformasiya agentliyi hansısa şəxsin şərəf və ləyaqətini pozursa, onlar aidiyyəti üzrə səlahiyyətli quruma müraciət edə bilərlər. Bizim həmin məlumatı iki ay ərzinədək bloklamaq səlahiyyətimiz var, əgər bu agentlik dövlətdə qeydiyyatdan keçibsə. Amma "Feysbuk", "İnstaqram" kimi sosial şəbəkələrdən söhbət gedirsə, bizim bu sahədə mexanizmimiz yoxdur", - deyə Zarina Kalmuratova əlavə edib.

Türkiyənin ölkəmizdəki səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir deyib ki, bəzən saxta xəbərlər və manipulyativ məlumatlar yalnız gündəlik informasiya axınında deyil, hətta müxtəlif "komplo nəzəriyyələrinin" yazılmasında da istifadə olunur. Bu gün informasiya dövrü elə bir mərhələyə gəlib çatıb ki, artıq peyk və kosmik texnologiyalar media ekosisteminin ayrılmaz hissəsinə çevrilib.

"Siz çox yaxşı media ekosistemi qura, yüksək peşəkar jurnalistlər yetişdirə bilərsiniz, lakin əgər kosmosda, yəni, peyk texnologiyalarında mövcud deyilsinizsə, təəssüf ki, Yer üzərində də tam güclü informasiya mövqeyinə sahib ola bilməzsiniz. Hazırkı şəraitdə peyk texnologiyalarının media sahəsinə təsiri son dərəcə böyükdür. Bu gün süni intellekt texnologiyaları ilə peyk infrastrukturunun inkişafı eyni səviyyədə irəliləyir. Əgər biz kosmos müstəvisində rəqabət qabiliyyətinə sahib deyiliksə, yayımladığımız xəbərlər də, qurduğumuz bağlantılar da öz əhəmiyyətini itirə bilər. Bu böyük dəyişikliyə uyğunlaşmaq üçün, ilk növbədə, yerli potensialın gücləndirilməsi əsas şərtdir", - deyə Alptekin Cihangir İşbilir vurğulayıb.

Müşavirin sözlərinə görə, media hər bir ölkə üçün son dərəcə strateji sahədir. Dövlətlərin fikirlərini, mövqelərini, dünyaya mesajlarını çatdıran məhz mediadır. Buna görə də həm texnoloji, həm peşəkar, həm də institusional baxımdan güclü media ekosistemi formalaşdırmaq milli təhlükəsizlik məsələsinə çevrilib.

Şimali Kipr Türk Cümhuriyyətinin xarici işlər nazirinin müavini Mustafa Lakadamyalı isə fikirlərini bu cür ifadə edib: "Bizim dövlətimiz 40 ildir mövcuddur və müxtəlif təşkilatlarda təmsil olunmuşuq. Tarixə nəzər salsaq deyə bilərik ki, yanlış informasiya, əslində, hər birimizin üzləşdiyi problemə çevrilib. Təşkilata üzv olduqdan sonra özümüzü daha güclü hiss etdik. Biz bu təşkilat vasitəsilə daha güclü ola bilərik. Türk dünyası üçün çox işlər görə bilərik. Biz hələ istədiyimiz səviyyəyə çatmamışıq".

Müzakirələr zamanı iştirakçılar qlobal informasiya risklərinin sürətlə artması, dezinformasiya kampaniyalarının sərhədləri aşan şəkildə yayılması fonunda türk dövlətlərinin media ekosistemində dayanıqlılığın gücləndirilməsinin strateji zərurətə çevrildiyini vurğulayıblar. Qeyd olunub ki, müasir informasiya mühitində məlumatın etibarlılığının qiymətləndirilməsi, tənqidi düşünmə və analitik bacarıqların artırılması, rəqəmsal media tendensiyalarının operativ şəkildə mənimsənilməsi, eləcə də türk dövlətləri üzrə davamlı və təhlükəsiz media ekosisteminin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır.

Diqqətə çatdırılıb ki, ortaq tarixi-mədəni bağlara malik türk dövlətləri arasında media sahəsində əməkdaşlığın dərinləşdirilməsi, vahid media standartlarının formalaşdırılması və qarşılıqlı təcrübə mübadiləsinin təşviqi müasir çağırışlara adekvat reaksiya verilməsi baxımından xüsusilə vacibdir.

# Qarabağ və Şərqi Zəngəzurda bərpa edilən həm də milli irsimizdir

**Vətən müharibəsindən sonra dövlətimizin qarşısında duran yeni prioritetlərdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpasıdır. Ötən 5 ildə Qarabağ və Şərqi Zəngəzurun quruculuğu istiqamətində görülmüş işlərin miqyası həqiqətən əzəmətlidir.**




### 6 şəhər, 2 qəsəbə və 22 kənd

İndiyədək işğaldan azad edilmiş ərazilərdə 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib. Qarabağ və Şərqi Zəngəzura bu il noyabr ayının 1-dək 20879 nəfərdən ibarət 5256 ailənin qayıdışı təmin olunub. Buradakı bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxsləri və Qarabağ Universitetində təhsil alan tələbələri də nəzərə alsaq, hazırda işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı təxminən 62 min nəfər təşkil edir.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri ilk olaraq yolların salınmasından, enerji ilə təminatdan başlayıb. Son 5 ildə burada həyata keçirilən nəqliyyat layihələri həm miqyasına, həm sayına görə bir daha Azərbaycan dövlətinin qüdrətini, əzmini nümayiş etdirir. Ötən 5 ildə Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat infrastrukturu ilə bağlı 60 layihə üzrə 3501,6 kilometr uzunluğunda yolun tikintisi üzrə işlərə başlanılıb. Bu layihələrdən 16-sı tam, 1-i isə qismən başa çatıb.

Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının inşasını da xüsusi qeyd etməliyik. Dəmir yollarına gəldikdə, Bərdə-Ağdam, Horadiz-Ağbənd və Ağdam-Xankəndi dəmir yolu xətləri üzrə layihələndirmə və tikinti işləri aparılıb. Bərdə-Ağdam dəmir yolu xətti isə tam istifadəyə verilib.

Enerji ilə təminata gəldikdə, 14 elektrik yarımstansiyası inşa edilib, 1000 kilometrdən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilərək zəncirvari şəkildə 12 yeni yarımstansiya birləşdirilib. Bütün bunlar azad edilmiş ərazilərin enerji ehtiyaclarını tam təmin edir. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzurda 307 MVt gücündə 38 su-elektrik stansiyası inşa olunub. Azərbaycanın vahid enerji sisteminə inteqrasiya olunan bu SES-lərin inşası ölkəmizdə "yaşıl" və bərpaolunan enerjiyə keçidlə bağlı çağırışların uğurla reallaşdığını göstərir.

İşğaldan azad edilmiş ərazilərdə qaz təchizatı sahəsində 6 magistral xəttin çəkilməsi də önəmli hadisədir. İndiyədək 9 qazpaylayıcı stansiya və 1 qaztənzimləyici məntəqə inşa olunub, 8 şəhərə, 20 kənd və 1 qəsəbəyə qazın verilməsi təmin olunub.

Onu da qeyd edək ki, bütün bu işləri Azərbaycan dövləti öz gücü hesabına həyata keçirib. İndiyə qədər Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə 569 tədbirdə iştirak edib, ümumilikdə 177 müxtəlif təyinatlı layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

### Separatizmi simvolizə edən binalar artıq yoxdur

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən işlərin bir istiqamətini separatizmin izlərinin aradan qaldırılması, o cümlədən xalqımızın tarixi irsinin bərpası təşkil edir. Məlum olduğu kimi, ermənilər işğal illərində bu əraziləri erməniləşdirmək üçün abidələrimizə qarşı vandallıq həyata keçiriblər. Məqsədlərinə çata bilmədikləri üçün isə tarixi abidələrimizi dağıdıblar, milli irsimizi məhv etməyə çalışıblar. İşğalçılar bir sıra şəhər və rayonlarımızda qanunsuz şəkildə arxeoloji qazıntı işləri apararaq cinayətlər törədiblər. Lakin 30 ilə yaxın dövrdə işğalçılar bu əraziləri erməniləşdirə bilməyiblər. Xalqımıza aid tarixi və mədəniyyət nümunələrini isə talan edərək Ermənistana aparıblar.

Bu gün işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa prosesi çərçivəsində xalqımızın milli-tarixi irsi də yenidən dirçəlir. Tarixi abidələr, milli-mədəni nümunələr, məscidlər bərpa olunur, yenidən qurulur, əvvəlki vəziyyətinə qaytarılır.

Ermənilərin Qarabağda öz adlarına çıxarmağa çalışdıqları tarixi və dini abidələrin bir qismi alban irsinə aid nümunələrdir. Qarabağ və Şərqi Zəngəzur bölgəsində 200-ə yaxın alban məbədi, monastrı, alban xristian kilsəsi ilə bağlı tarixi yerlər mövcuddur. 30 il ərzində erməni işğalçıları tərəfindən bu irsin bir qismi dağıdılıb, bir qismi ermənilərə sərf edən formada dəyişdirilib. Alban irsinin bölgənin tarixi baxımından əhəmiyyətini dərk edən ermənilər istər işğal illərində, istərsə də ondan əvvəl onu özlərinə bağlamaq və Azərbaycan torpaqlarına iddialarını bu amillə gücləndirmək üçün xeyli saxtakarlıqlar ediblər.

Azərbaycanın zəfəri Alban irsini də xilas etdi. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərinin bir istiqamətini də ermənilərin dağıtdığı tarixi və dini abidələrin bərpası təşkil edir. Bu sırada saxtalaşdırılan alban irsinə aid nümunələrin də tarixi simaları özlərinə qaytarılır.

İşğal illərində separatçılar tərəfindən Xankəndi şəhərində qanunsuz tikintilər həyata keçirilmişdi. O cümlədən separatizmi simvolizə edən binalar inşa olunmuşdu. Bunlardan biri separatçı rejimini "parlament" binası idi. Bu bina torpaqlarımızın işğal olunmasının və dinc azərbaycanlı əhaliyə qarşı soyqırımı planlarının rəvac verildiyi terror yuvası olub. Bundan başqa Xankəndidə terrorçu "Yerkrapa" təşkilatının da binası mövcud idi. Xankəndinin tarixi simasının bərpası istiqamətində aparılan işlər çərçivəsində adıçəkilən hər iki bina sökülüb. Beləliklə, Qarabağda erməni separatizminin simvollarını daşıyan bütün tikililər aradan qaldırılıb. Separatçılar Şuşada da "parlament binası" inşa etməyə başlamışdılar. Lakin Vətən müharibəsində Azərbaycan Ordusu həmin binanı içəridəki işğalçılarla birlikdə məhv etdi.

Torpağın qədrini onun əsl sahibləri bilər. Bu baxımdan, Azərbaycan dövlətinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi bərpa və quruculuq işləri bu torpaqlarının əsl sahibinin məhz xalqımız olduğunu göstərir. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur, əzəli Azərbaycan ərazisi kimi şöhrətini özünə qaytarır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan sülh qovşağına çevrilib

## Cənubi Qafazın lider ölkəsi beynəlxalq təhlükəsizlik konfiqurasiyasında aparıcı aktorlardan biri kimi çıxış etməyə başlayıb

**Zaman ötdükcə Azərbaycan Respublikasının Vətən müharibəsi və antiterror tədbirlərində böyük hərbi-siyasi zəfərləri ilə yaratdığı yeni konfiqurasiyanın nəticəvi mahiyyətinin yalnız Azərbaycanın işğal altında olmuş torpaqlarının azad edilməsi və dövlət suverenliyimizin bərqərar edilməsində ehtiva olunmadığı aydın formada üzə çıxmaqdadır.**



Prezident İlham Əliyevin müzəffər liderliyində Azərbaycanın yaratdığı yeni reallıq, ilk növbədə, özündə beynəlxalq hüququn aliliyinin təntənəsi, beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin, xüsusən BMT Nizamnaməsində ayrıca diqqət yetirilən xalqların əməkdaşlığı prinsipinin praktik reallıq mərhələsinə qədəm qoyması kimi xarakterizə oluna bilər. Daha dəqiq desək, Azərbaycan Respublikası özünü regionun əsas hərbi-siyasi gücü, qlobal miqyasda isə getdikcə imkanları artan, önəmli orta güc kimi təsdiq etməklə yaranan yeni reallığın dayanıqlı əsaslarda mövcudluğunu davam etdirə biləcəyini sığortalamış oldu. Təhlükəsiz, etibarlı və dayanıqlı mühit isə, istənilən növ əməkdaşlıq, o cümlədən siyasi, iqtisadi, mədəni, humanitar əlaqələrin zəmanət elementi kimi çıxış edən əsas amildir.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın son 5 ildə yaratdığı reallıqlar bu prosesdə hərəkətverici qüvvə kimi çıxış edir, lakin unutmaq olmaz ki, qələbəmiz Prezident İlham Əliyevin Ulu Öndər siyasi kursunun bazisində zəfərə qədərki konfiqurasiyanın aktiv fazaya qədəm qoymasını təmin etdi: "Çoxsaylı maneələrə baxmayaraq, dövlət başçımızın zamanında reallaşdırdığı layihələr, o cümlədən energetika resurslarının dünya bazarına daşınması üçün əvvəlki dövrlərdə istifadə olunan layihələrə alternativ olaraq yeni neft və qaz boru kəmərlərini istifadəyə verməsi, həmçinin bu gün Orta dəhlizin vacib seqmenti kimi çıxış edən dəmir yolu və avtomobil yollarının, habelə logistika mərkəzlərinin, beynəlxalq hava limanlarının bir çox beyin mərkəzlərinin belə proqnozlaşdıra bilməyəcəyi miqyasa köklənmiş formada inşa edilməsi və istifadəyə verilməsi prosesdə təməl amillər kimi çıxış etdi və Azərbaycana hərəkət imkanı yaratdı".

Deputat qeyd edib ki, infrastruktur layihələrinin istifadəyə verilməsi bir çox hallarda maliyyə mənbələrinin mövcudluğu ilə bağlıdır. Azərbaycanın neft-qaz ehtiyatlarından gələn gəlirləri doğru bölüşdürməsi və düzgün istifadəsi ilə meydana çıxan mənzərə dövlətimizin bu problemin öhdəsindən gələcək qədər imkanlara sahib olduğunu göstərdi. Lakin Cənubi Qafqazın timsalında elə bölgələr var ki, həmin coğrafiyalarda layihələrin realizə olunması üçün maliyyə mənbələri ikinci dərəcəli problemə çevrilir. Belə coğrafiyalarda hər hansı qlobal əhəmiyyətə malik layihənin realizəsi üçün, ilk növbədə, ciddi siyasi iradəyə ehtiyac var. İstər Bakı-Tbilisi-Ceyhan, istər Bakı-Tbilisi-Qars layihələri göstərdi ki, Azərbaycanın reallaşdırmaq istədiyi layihələrlə bağlı hər hansı üçüncü gücün iradəsi ölkəmizdə milli iradəni təmsil edən Prezident İlham Əliyevin qətiyyətindən daha üstün olma ehtimalına malik deyil. "Qəti siyasi gedişləri, milli maraq və mənafelər baxımından barışmaz mövqe nümayiş etdirməklə cənab İlham Əliyev beynəlxalq hüququn aliliyini rəhbər tutan bütün növ bərabərhüquqlu əməkdaşlıqlara açıq olsaq da, milli mənafelərimizi hər zaman istənilən maraqdan daha üstün tutacağımızı məhz bu layihələrin realizəsi ilə praktik olaraq nümayiş etdirmiş oldu. Nəticədə, milli iradənin üstünlüyündə xarakterizə olunan bu qətiyyətli mövqe Prezident İlham Əliyevə hələ 2003-cü ildə özünün ilk andiçmə mərasimində bəyan etdiyi niyyətləri hətta özünün proqnozlarından belə daha artıq formada reallaşdırmağa imkan verdi. Bu isə öz növbəsində Azərbaycan Respublikasını möhkəm siyasi və iqtisadi suverenliyə malik dövlətə çevirməklə yanaşı, həm də Bakıya beynəlxalq təhlükəsizlik konfiqurasiyasında aparıcı aktorlardan biri kimi çıxış etməyə imkan yaratdı. Bu prosesdə cənab İlham Əliyevin ən böyük uğurlarından biri yaratdığı yeni reallığın qlobal miqyasda qəbul edilməsinə nail olmaq, ABŞ, Fransa, Avropa İttifaqı kimi bölgədə bir zamanlar qeyri-praqmatik maraqlar güdən subyektlərə bölgədə yalnız öz mənafelərini Azərbaycanın maraqları ilə uzlaşdırılmış şəkildə təmin edə biləcəyi reallıqlarını diktə edə bilməsi olub. Elə Zəngəzur dəhlizinin timsalında da görünür ki, Azərbaycan Respublikası arzuladığı istənilən məsələni beynəlxalq gündəliyin baxışından artıq keçirə və uzlaşdırılmış maraqlar məcmusuna çevirə bilir", - deyə o əlavə edib.

B.Məhərrəmov bildirib ki, nəticə etibarı ilə qütblərarası ziddiyyətin toqquşma nöqtəsinə çevrilmiş Cənubi Qafqaz bu gün məhz Azərbaycan Prezidentinin qətiyyət və iradəsi ilə formalaşan nəqliyyat-kommunikasiya habına çevrilməklə dünyada maraqların hər bir dövlətin, xalqın maraq və mənafeləri ehtiva olunmaqla uzlaşdığı sülh qovşağına çevrilib. Bu reallıq Azərbaycanın qələbəsinin yalnız iki ölkə arasında hərbi münaqişənin başa çatması, yaxud bir dövlətin öz ərazilərini işğaldan azad etməsi kimi regional əhəmiyyətli proseslə yekunlaşmadığını daha geniş miqyasa malik qlobal nəticələr doğuran hadisə kimi tarixin qızıl səhifəsinə çevrildiyini göstərməkdədir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Regionun yeni ticarət yolları açılır

## Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı etimadın formalaşması üçün mühüm zəmin yaranıb

"Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunması üçün atılan addımlar Azərbaycan diplomatiyasının ardıcıl və məqsədyönlü siyasətinin nəticəsidir. 2020-ci ildən sonra yaranan reallıqlar ölkəmizin yalnız hərbi üstünlüyünü deyil, həm də siyasi gücünün ifadəsidir. Prezident İlham Əliyevin ardıcıl sülh təşəbbüsləri bölgədə uzun illər davam edən hərbi münaqişəni dayandırması ilə yanaşı, qarşılıqlı etimadın da əsasını qoydu".



Milli Məclisin deputatı Sevinc Fətəliyeva bildirib ki, postmüharibə dövründə Azərbaycan qalib tərəf olmasına rəğmən, heç bir ilkin şərt irəli sürmədən, sırf beynəlxalq prinsiplərdən çıxış etməklə sülh təşəbbüsünü irəli sürüb və daim sülh gündəliyinə dəyişməz sadiqlik nümayiş etdirib: "Avqustun 8-də isə Vaşinqtonda möhtəşəm tarix yazıldı. Ağ Evdə aparılan müzakirələr, imzalanan sənədlər, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp tərəfindən dövlətimizin başçısına göstərilən xüsusi ehtiram Azərbaycan diplomatiyasının növbəti uğuru oldu. Baş verənlər ölkəmizin necə düzgün, uğurlu yol keçdiyini, üzləşdiyi çətinliklərə, haqsızlıqlara, ikili standartlara baxmayaraq, ümummilli hədəflərinə, sülh istəyinə doğru inamlı addımlar atdığını sübut etdi".

Deputat bildirib ki, Azərbaycan dövləti və xalqı müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmindədir. Məlumdur ki, Ermənistandakı revanşist əhvali-ruhiyyəli qüvvələr, bu ölkənin yaxın-uzaq coğrafiyalardakı havadarları dünya birliyinin 44 günlük müharibənin və 23 saatlıq antiterror tədbirlərinin nəticələrini tanımamasına nail olmağa çalışırdılar, bəzi ölkələrin parlamentlərində qərəzli, ədalətsiz, heç bir əsası olmayan bəyanatlar, qətnamələr qəbul olunurdu. Ancaq haqq yolu tutan, beynəlxalq hüquq çərçivəsində davranan, ədalətli müharibənin qalibi olan Azərbaycan təzyiqlər qarşısında geri çəkilməyərək, öz həqiqətlərini müdafiə etməyi bacardı. "Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan və Ermənistan liderlərinin Birgə Bəyanatı, iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması bir daha göstərdi ki, dünya Azərbaycanın başladığı, irəli apararaq məntiqi sonluğa yaxınlaşdırdığı sülh gündəliyini qəbul edir. Vaşinqton görüşünün nəticəsi olaraq ATƏT-in Minsk qrupunun və ona bağlı olan əlaqəli qurumların de-yure ləğvi də keçmiş Qarabağ münaqişəsinin beynəlxalq gündəmdən tamamilə çıxarılması deməkdir. Bu, Azərbaycan üçün tarixi uğurdur. Artıq revanşistlərin, onilliklər ərzində işğalçılıq siyasətini dəstəkləmiş qüvvələrin, erməni lobbisinin istinad edəcəyi heç nə qalmayıb", - deyə o əlavə edib.

Sevinc Fətəliyeva qeyd edib ki, Vaşinqton razılaşmasından sonra qarşılıqlı etimad mühitinin formalaşması üçün praktiki addımlar atılır. Ermənistana yük tranziti ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məhz bunun göstəricisidir. Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub.

Deputatın fikrincə, bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun göstəricisidir: "Rusiyadan da yüklərin Ermənistana Azərbaycan ərazisi vasitəsilə daşınması həyata keçirilir. Bu, o deməkdir ki, regionda yeni ticarət yolları açılır, qarşılıqlı etimadın formalaşması üçün mühüm zəmin yaranır. Bu yaxınlarda Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətinin nümayəndələrinin qarşılıqlı səfərləri də sülh yolunda önəmli addımlardır".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində Cənubi Qafqaz hərbi toqquşmalar məkanından əməkdaşlıq platformasına çevrilməkdədir. Azərbaycanın sülh təşəbbüsləri bu gün həm beynəlxalq aləmdə, həm də region müstəvisində etimad qazanıb. Dövlətimiz bu gün bölgədə dayanıqlı sülhün təmin olunması üçün zəruri addımlarını atır. "Yekun sülh müqaviləsini imzalamaq üçün isə rəsmi İrəvan üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Bu da ondan ibarətdir ki, Ermənistan konstitusiyasından və digər qanunvericilik aktlarından Azərbaycana qarşı ərazi iddiaları çıxarılmalıdır. Qarşı tərəf bu məsələni həll etdikdən sonra yekun sülh sazişinin imzalanması üçün heç bir əngəl qalmayacaq", - deyə Sevinc Fətəliyeva bildirib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib



Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələri baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-cı maddəsinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 26.3-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F.Məmmədovun məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin müraciətini və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Sumqayıt Apellyasiya Məhkəməsi, Vəkillər Kollegiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, həmin nazirliyin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru N.Şükürovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələrinin tələblərinə, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.4, 1.0.5, 1.0.9 və 26.3-cü maddələrinə və Konstitusiya Məhkəməsi Plenumunun bu qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən, sərəncamlarında olan avtonəqliyyat vasitələri ilə işçilərinin və ya yüklərinin daşınması məqsədilə öz hesabına daşımaları yerinə yetirən hüquqi şəxslər və fərdi sahibkarlar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-cı maddəsində göstərilən inzibati xətanın subyekti deyillər.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

## Qarabağ Universitetinin yaradılmasından iki il keçir

# Zəfərin intellektual davamı və dirçəliş missiyasına xidmət




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli müvafiq sərəncamı ilə Qarabağ Universitetinin yaradılmasından iki il ötür. Bu iki il yalnız bir ali təhsil ocağının fəaliyyət dövrü deyil - qazanılmış tarixi Zəfərin elmi, mədəni və intellektual müstəvidə məntiqi davamıdır. Qarabağ Universitetinin yaradılması 2020-ci ildəki 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirləri nəticəsində bərpa edilmiş ərazi bütövlüyümüzün və suverenliyimizin təmin etdiyi yeni dövrün və yeni reallıqların rəmzlərindən biridir.**

Təhsil ocağı işğaldan azad olunmuş ərazilərimizin dirçəlişinə yönəlmiş məqsədyönlü dövlət siyasətinin əhəmiyyətli dayaqlarından birini təşkil edir. Bu addım həm də Müzəffər Ali Baş Komandan İlham Əliyevin *"Qarabağ Azərbaycandır!"* ideyasının təhsil və elm müstəvisində gerçəkliyə çevrilməsinin aydın təzahürüdür. Bu gün Qarabağ Universitetinin auditoriyalarında, laboratoriyalarında, kampusunda, genişlənməkdə olan elm, təhsil və sosial ekosistemində yaradılan hər bir dəyər bu torpaqlarda həyatın bərpasına, yenilənməsinə və davamlı inkişafına əsaslanır.

Qarabağ Universitetinin yaradılması barədə qərarın qəbul edilməsi zamanı bu addımın sadəcə, yeni bir ali təhsil ocağının qurulmasından ibarət olmadığı hər kəsə məlum idi. Həmin qərar Qarabağın gələcək inkişaf modelini müəyyən edən mühüm strateji sənədlərdən biri hesab edilirdi. Bu sənəd azad edilmiş torpaqlarda həyatın bərpası ilə yanaşı, bölgənin intellektual potensialının formalaşdırılması üçün mühüm təməl yaratdı. Bu gün artıq iki ildən sonra, dövlətimizin yüksək diqqəti və dəstəyi sayəsində Qarabağ Universiteti Qarabağın dirçəlişində fəal iştirak edən və dinamik inkişaf edən qurumlarından birinə çevrilmişdir.

Qarabağda əldə edilmiş tarixi Zəfərdən sonra ölkəmiz qarşısında yeni mərhələ - azad edilmiş torpaqların yenidən qurulması, sosial-iqtisadi həyatın bərpası, regionun elm, təhsil və mədəniyyət mərkəzinə çevrilməsi kimi strateji vəzifələr dayanır. Universitetin yaradılması həmin vəzifələrin mərkəzində yer alan ən fundamental layihələrdən oldu. Bu ali məktəb dövlətin regionla bağlı orta və uzunmüddətli gələcəyə hesablanmış siyasətinin, Qarabağın intellektual kimliyinin, Zəfər ruhunun və azərbaycançılıq ideyasının daşıyıcısıdır.

Universitetin təsis olunması, ilk növbədə Qarabağın bərpası və inkişafının biliklərə, elmə və müasir texnoloji yanaşmalara əsaslanmasının vacibliyini bir daha önə çıxarır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, azad edilmiş ərazilərdə qurulan yeni həyat müasir texnologiyalara, innovasiyalara, "ağıllı" konseptlərə əsaslanmalıdır. Bu baxımdan Qarabağ Universiteti bölgənin gələcək sosial-iqtisadi arxitekturasının elmi bazasının qurulmasına töhfə verməlidir. Ali məktəb həm yeni insan kapitalının yetişdirilməsi, həm də Qarabağda tətbiq olunacaq modern idarəetmə, planlaşdırma və inkişaf strategiyalarının elmi əsaslarla təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb etməlidir. Bu ali təhsil ocağı bölgənin yenidən qurulması prosesində intellektual mərkəz rolunu oynayaraq, Qarabağın gələcək iqtisadi, sosial və mədəni strukturunun formalaşmasında aparıcı subyektlərdən biri olmaq missiyasını yerinə yetirə bilməlidir.

Beləliklə, Qarabağ Universiteti dövlətimizin postkonflikt dövrü üçün müəyyən etdiyi yeni inkişaf fəlsəfəsinin həm ideoloji, həm də institusional təcəssümünə çevrilmişdir. Ali təhsil ocağı Qarabağda həyatın yenidən canlandırılmasına, azad olunmuş ərazilərdə tarixən mövcud olmuş təhsil ənənələrinin bərpasına, regionun dayanıqlı və uzunmüddətli inkişafını təmin edəcək kadrların hazırlanmasına, gənclərin Zəfər ruhu ilə formalaşmasına və Qarabağın hərtərəfli inkişafına töhfə verməyi hədəfləyən müasir akademik ekosistemin yaradılmasına xidmət edən milli əhəmiyyətli layihədir. Eyni zamanda universitet Qarabağda azərbaycançılıq ideyasının möhkəmləndirilməsinin, milli kimlik və dövlətçilik ənənələrinin elmi əsaslarla yaşadılmasının mühüm akademik platforması kimi çıxış edir.

Dövlət suverenliyinin bərpa edilməsindən düz bir il sonra bu ali təhsil müəssisəsinin müasir infrastrukturla, peşəkar heyətlə və yüzlərlə yüksəkballı tələbələrlə fəaliyyətə başlaması həm dövlətimizin gücünün təzahürlərindən biri, həm də tarixi Zəfərin növbəti təntənəsi olaraq dəyərləndirilməlidir. Bu həm də tarixi Zəfəri yaşamış gənclərimizə məhz tarixi Zəfərin qazanıldığı məkanda ali təhsil almaq, layiqli vətəndaş və yüksəkixtisaslı kadr kimi yetişmək, eləcə də əzəli torpaqlarımızın bərpası və inkişafında pay sahibi olmaq üçün geniş imkanlar və fürsətlər qazandırır.

Bu kontekstdə təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və iştirakı ilə Qarabağ Universitetinin açılışı məhz 20 Sentyabr - Dövlət Suverenliyi Günündə baş tutdu. Dövlət başçımızın qeyd etdiyi kimi, "Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir".

Həqiqətən də, belə əlamətdar tarixi gündə Qarabağ Universitetinin açılışının keçirilməsi hər birimizdə böyük sevinc və fəxarət hissləri yaradır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək, doğrudan da, böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz".

Dövlət başçısının açılış tədbirində iştirakı, onun tədris binasında və yataqxanalarda mövcud şəraitlə tanış olması, tələbə və müəllim heyəti ilə görüşü və proqram xarakterli çıxışı doğma Xankəndidə qurulmuş bu ali təhsil müəssisəsinə göstərilən yüksək diqqətin bariz nümunələrindən olması ilə yanaşı, professor-müəllim və tələbə heyəti qarşısında olduqca böyük məsuliyyət və vəzifələr qoyur. Xüsusilə vurğulamaq lazımdır ki, açılış mərasimində dövlət başçımızın ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanan çıxışı zamanı səsləndirdiyi fikirlər Qarabağ Universitetinin yol xəritəsini formalaşdırdı. Prezident İlham Əliyevin universitetdə səsləndirdiyi "Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir" fikri artıq təhsil ocağının əsas strateji devizi və inkişaf yolunun istiqamətverici prinsipinə çevrilmişdir. Təqdirəlayiq haldır ki, qarşıya qoyulan bu hədəfə nail olmaq üçün dövlətimiz tərəfindən həm maddi infrastruktur, həm də məzmun baxımından bütün imkanlar təmin edilir və yüksək dəstək göstərilir.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirakı bu yüksək diqqət və dəstəyin bariz nümunələrindəndir.

### İki ildə əldə olunmuş nəticələr və dinamik inkişaf

İki il ərzində Qarabağ Universitetində görülən işlərin miqyası regionun dirçəlişinin ümumi tempinə uyğun olaraq geniş və çoxşaxəlidir. Xankəndi şəhərində yerləşən universitetin kampusu qısa müddətdə infrastrukturla təmin edilmiş, üç tədris binası müasir avadanlıqlarla təchiz edilmişdir. Müasir laboratoriyalar, zəngin kitabxana fondu, tələbə və müəllim yaşayış binaları, həmçinin təhlükəsiz, rahat və yaşıl kampus məkanının yaradılması Qarabağ Universitetinin yüksək standartlara uyğun fəaliyyətinə xidmət göstərir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2025-ci il tarixli Fərmanına əsasən, Qarabağ Universitetinin tabeliyində "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxs yaradılıb. Klinikanın Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin etməsi, tibb sahəsində elmi tədqiqatlar aparması, regionda əhalinin sağlamlığının qorunmasında iştirak etməsi nəzərdə tutulub.

Xankəndi artıq tədricən tələbə şəhərinə çevrilir - elm, gənclik və həyat enerjisi ilə dolu müasir bir məkana. Hazırda universitetdə 1024 tələbə birinci, 1068 tələbə ikinci, 60 SABAH qrupu tələbəsi isə üçüncü tədris ilində olmaqla, ümumilikdə, 7 fakültə və 34 ixtisas üzrə 2152 tələbə təhsil alır. Təqdirəlayiq haldır ki, təhsil ocağının qısa müddətdə qazandığı nüfuz abituriyentlərin seçimlərində də öz əksini tapır. Hər iki tədris ili üzrə qəbul imtahanlarında yüksək nəticələr göstərən gənclər Qarabağ Universitetini seçiblər. 228 tələbə 600 və daha çox, 717 tələbə 500 və daha çox, 1342 tələbə isə 400-dən çox bal toplayıb. Ən yüksək nəticə 684 balla hüquqşünaslıq və tibb ixtisaslarında qeydə alınıb. Bir tələbə Prezident təqaüdünə layiq görülüb, 6 nəfər fənn olimpiadalarının qalibi kimi müsabiqədənkənar qəbul olunub. Tələbələrin 52 faizi qız, 48 faizi oğlandır. Qarabağ Universitetinin tələbə ailəsi ölkəmizin 66 rayon və şəhərini təmsil edən geniş coğrafiyanı əhatə edir. Hazırda burada əksəriyyəti nüfuzlu xarici universitetlərdə ali təhsil almış və müvafiq təcrübəyə sahib 288 əməkdaş çalışır: 137-si pedaqoji, 123-ü inzibati, 28-i texniki heyət üzvüdür. Qarabağ Universitetinin klinikasında isə 66 əməkdaş fəaliyyət göstərir. Tələbə və əməkdaşlarımız respublikamızda və xaricdə təşkil olunmuş müxtəlif çoxsaylı konfrans, forum, müsabiqə, yarışma, olimpiada, festival və sərgilərdə yüksək nəticələr göstərərək universitetimizi uğurla təmsil ediblər.

Təhsil ocağının tədris mühiti də modern yanaşmalar əsasında qurulmuşdur. Müasir pedaqoji yanaşmalar, qabaqcıl beynəlxalq kurikulumların tətbiqi, tələbə mərkəzli idarəetmə modeli, layihə əsaslı öyrənmə, laboratoriya yönümlü dərslər, rəqəmsal və yumşaq bacarıqların inkişafı, startap və innovasiya təşəbbüslərinin dəstəklənməsi Qarabağ Universitetini ölkənin ən dinamik akademik mühitlərindən birinə çevirir. Bu qısa müddətdə tələbələrin müxtəlif sosial və innovativ layihələrdə fəal iştirakı, Qarabağın sosial-iqtisadi inkişaf istiqamətləri üzrə yeni ideyalarla çıxış etmələri, həm də universitetdə tədris prosesinin praktiki yönümlülüyünə xüsusi önəm verilməsinin göstəricisidir.

Universitet fəaliyyətinin ilk ilindən etibarən dövlət və sənaye qurumları ilə işbirliyi, eləcə də beynəlxalq əməkdaşlıq sahəsində də fəal mövqe nümayiş etdirir. Sözügedən əməkdaşlıqlar çərçivəsində tələbə və əməkdaşların potensialının inkişafına, onların rifahının yüksəldilməsinə, bilik və bacarıqlarının artırılmasına hədəflənən bir sıra layihələr həyata keçirilmiş və müvafiq addımlar atılmaqdadır. Beynəlxalq fəaliyyətlə bağlı xüsusi olaraq vurğulamaq lazımdır ki, Qarabağ Universitetinin Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinə (TÜRKÜNİB) üzv qəbul edilməsi və Beynəlxalq Universitetlər Assosiasiyasında (IAU) təmsil olunması qlobal akademik məkanla inteqrasiyanın mühüm mərhələsini açdı. Nüfuzlu xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində ikili diplom proqramları, tələbə və müəllim mübadiləsi layihələri, tədris və tədqiqat laboratoriyalarının qurulması, birgə tədqiqatların və ortaq elmi tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Qarabağ Universiteti regional deyil, beynəlxalq elm və təhsil mərkəzinə çevrilmə hədəfi ilə fəaliyyət göstərir.

### Gələcək hədəflər

Qarabağ Universitetinin qarşıdakı illər üçün strateji hədəfləri daha geniş, sistemli və çoxşaxəlidir. Tədrisin keyfiyyətinin davamlı yüksəldilməsi, elmi potensialın gücləndirilməsi, gənclərin müasir bilik və bacarıqlara yiyələnməsi, maddi-texniki bazanın genişləndirilməsi və yenilənməsi, qarşılıqlı faydalı tərəfdaşlıqların inkişaf etdirilməsi, innovativ təşəbbüskarlığın, icmayönümlü layihələrdə fəallığın və beynəlxalq platformalarda iştirakın artırılması diqqət mərkəzində saxlanılır. Eləcə də, ortamüddətli perspektivdə tələbə sayının 10 minə çatdırılması, Şuşa, Xocalı və Xankəndini əhatə edən müasirtipli multikampus modelinin tətbiqinə nail olunması, proqramların beynəlxalq akkreditasiyalardan keçirilməsi, innovasiya ekosisteminin formalaşdırılması və inkişaf etdirilməsi qarşıda duran əsas hədəflərdəndir. Universitet dayanıqlı inkişaf yönümlü və tələbə mərkəzli idarəetmə, tədqiqat yönümlü tədris və innovasiya əsaslı bilik ekosistemi ilə ölkənin və regionun aparıcı ali təhsil mərkəzinə çevrilməkdə qərarlıdır.

Bu gün Qarabağ Universitetinin yaradılmasının ikiilliyi qeyd olunarkən böyük qürur hissi ilə vurğulanmalıdır ki, bu ali təhsil ocağı Azərbaycanın postmüharibə dövründə həyata keçirdiyi ən uğurlu layihələrdən biridir. Burada qurulan hər bir dəyər, açılan hər bir fakültə, qəbul olunan hər bir tələbə, keçirilən hər bir dərs Qarabağın dirçəlişinə atılmış daha bir addımdır. Universitet azad edilmiş torpaqlarda yalnız həyatın deyil, biliklərin və yaradıcılığın bərpası, vətənpərvərlik ruhunun, milli kimliyin və Zəfər irsinin qorunduğu mənəvi mərkəzdir. Qarabağ Universiteti qalib xalqın qalib gəncliyi üçün yaradılmış ali təhsil ocağıdır. Burada yetişən "Zəfər nəsli" bilikli, yaradıcı, milli kimliyinə sadiq və dünyaya açıq Azərbaycan gəncliyidir. Beləliklə, Qarabağ Universiteti Zəfərin elmi davamı, Qarabağın yenidən intellektual doğuluşunun rəmzidir. Qarabağ Universiteti ailəsinin üzvü olaraq bu şərəfli missiyaya xidmət etmək sonsuz fəxarətdir.

Sonda Qarabağ Universitetinin yaradılmasına və inkişafına davamlı olaraq göstərdiyi yüksək diqqət və dəstəyə görə Prezident İlham Əliyevə universitetin bütün əməkdaşları və tələbələri adından dərin təşəkkürümüzü bildiririk. Əminik ki, dövlət başçımızın universitetin gələcəyi ilə bağlı qarşıya qoyduğu strateji hədəflərə çatmaq, Qarabağın intellektual, elmi və təhsil potensialını yüksəltmək istiqamətində uğurla irəliləyəcəyik.

***Şahin BAYRAMOV,***
***Qarabağ Universitetinin rektoru***












## I Türkoloji Qurultay - 100

# Böyük ümidlərlə başladı, faciə ilə bitdi

**Türk xalqlarının birliyi köklərini uzaq keçmişdən götürür. Türklər böyük bir coğrafiyada çox güclü dövlətlər qurmuşlar. Onlar həm siyasi və hərbi qüdrətləri ilə, həm də mədəni və elmi sahələrdə bəşəriyyət tarixinə mühüm töhfələr vermişlər. Minlərlə ədəbi-mədəni irs, eyni milli-mənəvi dəyərlərimiz ortaq tarixi keçmişimizin misilsiz inciləri olmuşdur.**

100 il əvvəl Bakıda I Türkoloji Qurultay keçirilmişdir. Beynəlxalq miqyaslı bu möhtəşəm elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli şəkildə müzakirəyə çıxarılmış, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmişdir. Ən mühüm məsələlərdən olan latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusilə diqqət mərkəzində saxlanılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün I Türkoloji Qurultaya evsahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi".

Bu gün bütün türk dünyası ana dillərinin uzun əsrlər boyu işlək olması yönümündə apardığı islahatlarda həmin alimlərin miras qoyduğu ənənələrə, fundamental elmi əsərlərinə istinad edir. Buna görə də həmin şəxsiyyətlərin gördüyü işlər əvəzsizdir. Türk xalqlarının ana dili tarixində zaman-zaman böyük hadisələr baş verib, dilin inkişafına təkan olan əhəmiyyətli addımlar atılıb. Həmin türkoloqlar, dilçilər, dil təəssübkeşləri bu hərəkatın başında durub, dil siyasətində onların misilsiz xidmətləri olub.

### İlk türk qurultayı: böyük ümidlərə doğru

1926-cı il fevralın 18-də qurultayın Bakıda keçirilməsi məsələsi ÜK(b)P-nin Siyasi Bürosunda müzakirə edilir və müvafiq qərar qəbul olunur. Bu mötəbər məclisin çağırılması məsələsində Nəriman Nərimanov, Səməd Ağamalıoğlu, Cəlal Qorxmazov kimi dövlət və partiya rəhbərləri xüsusi xidmət göstərirlər. Qurultayın keçirilməsi ilə bağlı Orconikidze, Ağamalıoğlu və Naqovitsindən ibarət komissiya yaradılır, sonradan bu tərkibə Ruhulla Axundov, Cəlal Qorxmazov, Mirzə Davud Hüseynov da daxil edilir.

Beləliklə, 1926-cı il fevralın 26-da Bakı şəhərində "İsmailiyyə" binasında I Türkoloji Qurultay öz işinə başlayır. Mötəbər elmi məclisə S.Ağamalıoğlu sədrlik edir. 131 nəfər nümayəndənin iştirak etdiyi qurultay 17 iclas keçirir. Türk dünyasının dilinə, tarixinə, etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş 38 məruzə dinlənilir. Qurultaya fəxri üzv kimi dəvət olunmuş böyük türkoloq Əli bəy Hüseynzadə, məşhur nəzəriyyəçi N.Marr, sovet ideologiyasının rəhbərlərindən A.V.Lunaçarski rəyasət heyətinə seçilir. Alman türkoloqu T.Mentsel I Türkoloji Qurultayın məşhur türkoloq V.Radlovun şərəfinə keçirilməsi təklifini verir. Təklif qəbul edilir. Bununla bərabər, türkiyəli nümayəndələr də İsmayıl bəy Qaspiralının adını çəkirlər. Beləliklə, bu mötəbər elmi məclisin İsmayıl bəy Qaspiralı və V.Radlovun şərəfinə keçirilməsi qərarlaşdırılır.

Qurultaya dəvət olunanlar içərisində adlı-sanlı alimlərin F.Köprülüzadə, A.Krımski, N.Poppenin, L.Legitinin, N.Aşmarinin və digərlərinin olması onun tarixi dəyərini daha da artırır. Ümumilikdə isə bu mötəbər elmi məclisdə 600 nəfər alim iştirak edir. Dinlənilən məruzələr elmi cəhətdən yüksək



nəzəri səviyyəsi və aktuallığı ilə səciyyələnir. Onların heç birində kəskin millətçi, şovinist baxışlara yol verilmir. Çıxışlarda ortaq köklərə malik qohum xalqların vahid amalı, milli-mənəvi dəyərləri öz əksini tapır. Bu isə türk dünyasının son nəticədə dünya elm və mədəniyyətinin daha da zənginləşməsinə, inkişafına xidmət edirdi. Ona görə də qurultayın irəli sürdüyü ciddi məsələlər hakim sovet ideologiyasının prinsiplərinə uyğun gəlmədiyi üçün həmin türkoloji elmi axın sovetlər ittifaqının ictimai-siyasi mühitində böyük vahimə və şübhə yaradır, ağır repressiyalara yol açırdı. Əslində, yeni böyük sivilizasiyaların yaranmasına təkan verəcək bu prosesə hakim ideologiya pantürkist, panislamist yönümündən yanaşaraq sağlam düşüncəni arxa plana keçirirdi. Milli-mənəvi yaxınlığın və birliyin yarada biləcəyi bütövlüyə ümumi mədəni inkişafın bir parçası səviyyəsində deyil, mövcud ideoloji meyarların tərs üzü kimi baxılırdı.

Bir faktı da qeyd edək ki, bu dövrü öyrənən tədqiqatçıların araşdırmalarında göstərilir ki, keçmiş sovetlər ittifaqı tərkibində olan türk dövlətindən ilk olaraq Azərbaycanda 1920-ci ildə latın əlifbasına keçidlə bağlı komissiya yaradılmış və bu məsələni V.İ.Lenin yüksək qiymətləndirmişdir. Hətta Azərbaycan MİK-nin sədri S.Ağamalıoğlu Leninlə görüşmüş, əlifba məsələsində müsbət fikir əldə olunmuşdu. Lakin bütün bunlara baxmayaraq, 1920-ci ildən başlayan, əslində, 30-cu illərdə daha geniş cəbhədə hücuma keçən totalitar ideologiyanın bütün fəaliyyəti xalqların müstəqil düşüncəsinə, bu ideyaları işləyib hazırlayan, irəli sürən insanlara qarşı çevrilmişdi.

### İki əsas fikir və təklif tərəfdarları var idi

Qurultayda iki məsələ - latın qrafikasına keçid və ortaq ədəbi dil, ortaq terminologiya məsələləri mühüm yer tuturdu. Sovet rəhbərləri, əslində, bu qurultayın belə möhtəşəm səviyyədə olacağını düşünmürdülər. Elmi forumda ən çox müzakirə edilən, fikir toqquşmasına səbəb olan əlifba məsələsi idi. Qurultayın 17 iclasından yeddisi bu məsələyə həsr olunmuşdur. Mübahisələr, əsasən, iki mövqedə edilirdi: "latınçılar" və "islahatçılar" arasında. Qurultay Dağıstandan "latınçı" C.Qorxmazovun təklifinə 101 səs, "islahatçı" Tatarıstan nümayəndəsi Qəlimcan Şərəfin təklifinə 7 səs vermişdi. Bu məsələ ilə əlaqədar xüsusi qətnamə qəbul olunmuşdur.

"Latınçıların" əsas müddəaları ondan ibarət idi ki, ərəb əlifbası xalqlarımızın mədəni inkişafına, elmi tərəqqisinə əngəldir, təhsili, savadlanmanı yubadır, həm də türk dillərinin xüsusiyyətlərinə uyğun gəlmir. Beləliklə, I Bakı Türkoloji Qurultayında 7 böyük müzakirə obyekti oldu və müvafiq qərarlara imza atıldı.

Elmi toplantıda türk ədəbi dillərinin norma və üslub xüsusiyyətləri, eləcə də türk xalqlarının ana yurdu məsələsi də müzakirə obyekti oldu. Qurultay nümayəndələri özbək şairi Əlişir Nəvainin 500 illik yubileyində də iştirak etdilər. Qurultayın qərarına görə, II Türkoloji Qurultayın 1927-ci ildə Səmərqənd şəhərində keçirilməsi nəzərdə tutulsa da, bu qərar dövlətin siyasətinin dəyişməsi səbəbindən baş tutmadı.

Azərbaycanda qurultaydan sonra rəsmi şəkildə yekdilliklə latın qrafikalı əlifbaya keçid gerçəkləşdi. 1929-cu il yanvarın 1-dən sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu. İri kitab yandırma kampaniyası da bu yazını yaddan çıxarmaq məqsədi güdürdü.

Beləliklə, qurultayın qərarı nəticəsində bütün türk respublikaları ərazisində 1929-1939-cu illərdə latın qrafikalı əlifbadan istifadə edildi. Lakin 30-cu illərin sonunda sovet ittifaqı rəhbərliyi tərəfindən latın qrafikalı əlifbanın dəyişdirilməsi yönündə işlərə başlanıldı. 1939-cu ildə isə SSRİ-nin milli respublikalarında ümumi Kiril əlifbasından istifadə qərarı qəbul edildi. Rəsmi açıqlamaya görə latın əlifbasından Kiril qrafikasına keçid heç bir müzakirə, qurultay olmadan baş tutdu, sadəcə, "zəhmətkeşlərin ümumi istəyi" adı altında pərdələndi.

### Bəd niyyətlər, qanlı əməllər, ağır repressiyalar

Mövcudluğunun iki ilində, yəni qısa müddət olsa da, millətin tarixinə işıq saçan cümhuriyyət dövrünün istiqlal və demokratiya ənənələrini tam sürətlə qırmaq, məhv etmək mümkün deyildi. Başqa bir tərəfdən nə şəkildə olursa-olsun, Trotski, Buxarin, Zinovyev, Kamenev və digər siyasi liderlərlə bağlı olan müxalif kommunist cəbhəsinin varlığı İ.Stalinə sovetlərin ilk illərində hərtərəfli dağıdıcı hücuma keçməyə imkan vermirdi. Yetişmə, hazırlıq taktikası seçən V.İ.Leninin siyasi varisi İ.Stalin tərəfindən davam etdirilən avtoritar və totalitar rejim strateji planda böyük və qanlı proqramlar hazırlayırdı. Məhz belə bir vaxtda I Türkoloji Qurultayın nümayəndələri böyük ümidlə, coşqun həvəslə elmi etiraflarını edir, gələcək araşdırmalarını və vəzifələrini açıqlayır, fikirlərin üst-üstə düşməsi elmi üfüqlərə yeni işıq saçırdı. ÇK-nın isə dəhşətli xəbərlərlə dolu qovluqları aşıb-daşırdı. Hər çıxış, hər cümlə, hər ifadə, söz mənalandırılır, siyasi baxımdan özlərinə sərf olunan yönümdə yozulur, təhlil edilir və nəticə çıxarılırdı.

Azərbaycan MİK-nin dördüncü sessiyasının 1928-ci il 11 oktyabr tarixli qərarı ilə respublika latın əlifbasına keçir. Əlifba islahatı ölkədə dil quruculuğuna böyük təkan versə də, əslində, sovet ideoloqları üçün bu, tələsik yeni əlifbaya - latın əlifbasına keçid bütün türkdilli xalqların keçmişi ilə gələcəyi arasında körpünün uçurulmasına hesablanmışdı. Maraqlıdır ki, latın əlifbasını türk əlifbası adlandıraraq bir müddət onu müdafiə edənlər rus əlifbasının məcburi tətbiqi meylini hiss etdikdən sonra beynəlmiləlçi bolşeviklərin əksəriyyəti həm türk anlayışından, həm də müdafiə etdikləri türk əlifbasından imtina etdilər. S.Ağamalıoğlu 1929-cu ildə Azərbaycanın bütün SSRİ-də və Şərqdə ilk dəfə olaraq rəsmən latın qrafikasına keçməsini böyük zəfər adlandırdığı halda, həmin hadisənin üstündən bir il ötməmiş rus əlifbasının tətbiqinin zəruriliyindən bəhs edirdi. Beləliklə, yarım əsr ərzində, bir millətin üç əlifbadan istifadə etmək məcburiyyətində qalması, əslində, böyük bir faciə idi! Bunu obyektiv qiymətləndirmək və etiraz etmək əvəzinə, ziyalıların çoxu susurdu. Təbii ki, bunların səbəbləri var idi: milli ziyalıların böyük əksəriyyəti kütləvi şəkildə 1937-1938-ci illərdə repressiya olunurdu. Digər tərəfdən, rus əlifbasına etiraz edə biləcək istənilən ziyalının həmin aqibətə düçar olması hamını vahiməyə salırdı.

Dilçi alimlərin fikrincə, rus əlifbasının olduğu kimi qəbul edilməsinin tərəfdarları yaxşı anlayırdılar ki, mərkəz məhz bu qərarın üzərində dayanacaq. Və gözlənildiyi kimi də oldu! Sovet ideoloqları nə etdiklərini yaxşı başa düşürdülər: Azərbaycan insanı rus insanı kimi düşünməyə, yazmağa və kommunizm xəyalı ilə yaşamağa məhkum və buna məcbur edilirdi. İrəlidə isə görkəmli dilçi alimləri böyük repressiya burulğanı gözləyirdi. Bəkir Çobanzadə, Ruhulla Axundov, Hənəfi Zeynallı, Yusif Vəzir Çəmənzəminli, Ayna Sultanova, Hüseyn Cavid, Vəli Xuluflu, Salman Mümtaz... kimi güclü və işıqlı ziyalıların nə qədər böyük arzuları ürəklərində boğulub məhv ediləcəkdi...

### Xalqını sevən "xalq düşmən"ləri

Repressiyaya uğrayan, həbslərdə çürüyən insanların böyük əksəriyyəti 1926-cı ildə olan I Bakı Türkoloji Qurultayın nümayəndələri idi. Bəs bu insanların günahı nə idi? Axı onlar türk xalqlarının elmi-mədəni birliyinə, ortaq milli-mənəvi dəyərlərinin yaşadılmasına misilsiz töhfələr vermiş, dilçilik, latın qrafikasına keçid, terminologiya, orfoqrafiya, tarix, ədəbiyyat, folklor, incəsənət, etnoqrafiya, metodika sahələrində problemlərin həllinə və inkişaf yollarına işıq salan baxışlar sisteminin əməli-nəzəri prinsiplərini işləyib hazırlamışdılar, genişmiqyaslı yaradıcılıq fəaliyyəti göstərmişdilər.

Stalin repressiyası qurbanlarının çoxu istintaq zamanı Ruhulla Axundovun adını çəkirdi. Guya sovet dövlətinə, Kommunist Partiyasına dönüklüyü bu insandan öyrənmişdilər. Belə çıxırdı ki, sovetlərin ən böyük düşməni 1919-cu ildən ÜK(b)P-nin üzvü olan, qısa ömrünü sovet dövlətinin inkişafına həsr edən, alim, publisist, tərcüməçi kimi şöhrət qazanan, qəlbən inandığı, sevdiyi quruluşa sədaqətlə xidmət göstərən Ruhulla Axundov idi. Respublikada Mərkəzi Komitənin katibi vəzifəsinə qədər yüksələn bir insan necə "xalq düşməni"nə çevrilə bilərdi?! 1920-1926-cı illərdə R.Axundovun rəhbərliyi ilə Azərbaycan dilində Leninin 26 əsəri çap olunmuşdu. 1927-1932-ci illər ərzində Marks və Engelsin 15 min tirajla 5 əsəri, Leninin 106 min nüsxə ilə 19 əsəri Azərbaycan dilində işıq üzü görmüşdü. Təbii ki, bu, çox məntiqsiz bir yanaşma idi. Amma bütün bunlara baxmayaraq, sovet rejimi Ruhulla Axundova 41 yaşında güllələnmə hökmü vermişdi.

Qeyri-adi fitri istedada, dərin elmi biliklərə malik olan görkəmli alim Bəkir Çobanzadənin məhkəməsi 20 dəqiqə çəkmişdi. Ömrü də qısa olmuşdu - cəmi 44 illik bir həyat yaşamışdı. O, Azərbaycanda Yeni Əlifba Komitəsinin sədri, Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri təyin edilmişdi. Orta Asiyada, Tatarıstanda, Bolqarıstan və Krımda latın əlifbasına keçidlə əlaqədar ciddi iş aparmışdı. 1937-ci il yanvar ayının sonunda onu Kislovodskda dincəldiyi "Qornyak" sanatoriyasında həbs edirlər. Əvvəlcə, Pyatiqorsk həbsxanasında saxlanılır, sonra Bakıya gətirilir. 1937-ci il oktyabrın 12-də güllələnməyə məhkum edilir.

Bəs Hənəfi Zeynallı nədə günahlandırılırdı? Elə işlərdə, elə hərəkətlərdə ki, onların heç biri alimin fəaliyyətinə yaxın belə gəlmirdi. Həqiqət kimi qələmə verilən bütün günahlara görə məhkəmə qaydasında cəzalandırılmazdan əvvəl o, akademiyada tutduğu bütün vəzifələrdən çıxarılır. Nazim Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə və başqaları ilə əlaqə saxladığına görə ittiham olunur. Görkəmli alimə 1937-ci il oktyabrın 12-də ən ağır cəza - güllələnmə hökmü verilir.

Azərbaycanın xalq maarif komissarı, "Şərq qadını" jurnalının redaktoru, ədliyyə komissarı və Ali Məhkəmənin sədri olmuş Ayna Sultanova çox tez başa düşmüşdü ki, uğrunda vuruşduğu quruluş, dəstəklədiyi hökumət heç də onun ümidini, inamını doğrultmur. Müəyyən müddətdən sonra Stalinlə görüşüb mövcud rejimlə bağlı şikayətlərini bildirmək qərarına gəlir. Bu məqsədlə Moskvaya gedərkən elə vağzalda həbs olunur. 3 iyul 1938-ci ildə onun da ölüm hökmü oxunur. A.Sultanovanın qardaşı Qəzənfər Musabəyov və həyat yoldaşı Həmid Sultanov da (I Türkoloji Qurultayın nümayəndələri olmuşlar) repressiyaya məruz qalmış və "xalq düşməni" kimi həyatlarına son qoyulmuşdu.

Böyük ideallarla yaşayan görkəmli folklorşünas-alim Vəli Xuluflu da o zamanlar yeni əlifbanın yaradılmasında vətəndaş fəallığı ilə iştirak etmişdi. Sovet siyasi ideoloji sistemi ərəb əlifbası tərəfdarlarını mürtəce, latınçıları isə yenilikçi kimi qələmə verirdi. Şübhəsiz ki, yeni əlifbaya keçid Vəli Xuluflunun dediyi kimi, "yalnız hərflərin dəyişdirilməsi demək deyildir, bu eyni zamanda yeni dövrün, xüsusilə də türkdilli xalqların ictimai-siyasi, mədəni həyatında mühüm rol oynaya biləcək tarixi hadisə idi". Repressiya dalğası 1938-ci ildə bu görkəmli alimin də həyatını yarımçıq qoyur.

Azərbaycanın xalq maarif komissarı, tənqidçi, ədəbiyyatşünas, publisist Mustafa Quliyev 1937-ci il avqustun 2-də həbs edilir, istintaqı bir ilə yaxın çəkir, 30 dəfədən çox dindirilir. Hər ifadəsinin sonuncu cümləsində haqqında deyilənlərin, yazılanların uydurma və böhtan olduğunu bildirirdi. Buna əhəmiyyət verməyən azğınlar M.Quliyevi 2 iyul 1938-ci ildə güllələnməyə məhkum edirlər.

Şair, publisist, görkəmli ədəbiyyatşünas, mətnşünas-alim Salman Mümtaz 1920-1937-ci illərdə 24 kitab, 70-dən çox məqalə çap etdirmiş, 100-dən artıq Azərbaycan və Yaxın Şərq şairi haqqında tədqiqatlar aparmışdır. Milli baxışlarına görə, o da təqib olunmuş və repressiyaya məruz qalmışdır. 1937-ci il oktyabrın 8-də həbs edilmiş, 1941-ci ilin 21 dekabrında ona ölüm hökmü verilmişdir. Həmin illərdə Hüseyn Cavid, Mikayıl Müşfiq, Əli Nəzmi, Əhməd Cavad, Əmin Abid, Sanılı və başqaları xarici dövlətlərə casusluqda, "pantürkizm"də günahlandırılaraq repressiya olunmuşlar. Uzun illər rəhbər vəzifələrdə işləmiş Mirzə Davud Hüseynov, ictimai-siyasi xadim Əhməd bəy Pepinov, 40 yaşına çatmamış "qırmızı terror"un qurbanı olmuş, gözəl publisist, jurnalist, naşir Həbib Cəbiyev, görkəmli pedaqoq Cabbar Məmmədzadə, Azərbaycanda xalq təhsilinin inkişafında müstəsna xidmətləri olan maarifçi-ziyalı, Şuşada açılan darülmüəlliminin ilk təşkilatçısı və müdiri Müseyib İlyasov, maarif xadimi Pənah Qasımov, dilçi, türkoloq-alimlər Əziz Qubaydullin, azərbaycanlı milli kadrların yetişdirilməsində böyük rol oynamış, qırmızı professor Boris Tixomirov, Aleksandr Bukşpan... pantürkist, panislamist "mövqelərinə görə" güllələnmişlər.Tanınmış türkoloq Xalid Səid Xocayev də repressiya burulğanının qurbanı olmuşdu.

Siyahıda yüzlərlə belə dəyərli, vətənpərvər ziyalıların adları vardır. Onların acı ömür hekayətlərini oxuyanlar ancaq dəhşətə gəlirlər! I Türkoloji Qurultay mühüm tarixi bir dövrdə keçirilmişdi. Bu möhtəşəm tədbir hər şeydən öncə siyasi bir hadisə idi. 100-dən artıq nümayəndəsinin - seçmə alim və mütəfəkkirlərin həbsi və fiziki məhvi ilə bitən bu elmi toplantı yaxın tarixin ən böyük ziyalı-alim soyqırımı idi.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Bakıda keçirilən tədbirlər "Şimal-Cənub" dəhlizində əməkdaşlığı gücləndirir

**"Noyabrın 26-da Bakıda regional və beynəlxalq əhəmiyyət daşıyan bir sıra mühüm hadisələr baş verib. Belə ki, nəqliyyat sahəsində strateji qərarların qəbul edildiyi, yüksəksəviyyəli görüşlərin keçirildiyi və gələcəyə yönəlik genişmiqyaslı planların müzakirə olunduğu tədbirlər reallaşıb. Ən önəmli hadisələrdən biri Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin Dəmir Yolu Nəqliyyatı Şurasının 83-cü iclasının məhz Bakıda keçirilməsi olub. Bu, Azərbaycanın regionda mühüm nəqliyyat mərkəzi kimi artan rolunun göstəricisi sayılır və iclasa MDB məkanında ciddi diqqət yönəldilib".**



Bunu AZƏRTAC-a açıqlamasında Rusiya Müasir Dövlət İnkişafı İnstitutunun direktoru, rusiyalı politoloq Dmitri Solonnikov söyləyib. O bildirib ki, tədbir çərçivəsində Azərbaycan, Rusiya və İran arasında "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə Anlaşma Memorandumu imzalanıb. Memorandum üç ölkə arasında uzunmüddətli əməkdaşlığın möhkəmlənməsinə və marşrutun qərb istiqamətində effektivliyinin artırılmasına xidmət edir.

Görüşlər zamanı tarif siyasətinin razılaşdırılması və bütün iştirakçılar üçün vahid kompleks tarif sisteminin formalaşdırılması üzrə mexanizmlər müəyyənləşdirilib. Bu addım "Şimal-Cənub" dəhlizinin qərb qolunda yükdaşımaların həcminin artırılmasına şərait yaradacaq. Yaxın perspektivdə Rusiya-Azərbaycan tranzit xətti üzrə yük dövriyyəsinin ilk mərhələdə 5 milyon tona, sonrakı mərhələdə isə 15 milyon tona çatdırılması hədəflənir. Onun sözlərinə görə, bu proses ticarət əlaqələrinin genişlənməsinə, avadanlıq və malların daha sürətli daşınmasına imkan yaradacaq. Yük axınları həm şimaldan cənuba, həm də cənubdan şimala doğru artmaqdadır ki, bu da iştirakçı ölkələr üçün iqtisadi baxımdan əlverişlidir.

"Paralel olaraq dəmir yolu infrastrukturunun modernləşdirilməsi, rəqəmsallaşdırılması və idarəetmənin təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Bu tədbirlər Azərbaycanın həm Rusiya, həm də İranla sərhəd bölgələrini əhatə edir və məqsəd vahid, sürətli və effektiv nəqliyyat sisteminin formalaşdırılmasıdır. Bu isə təkcə region üçün deyil, bütövlükdə Avrasiya məkanı üçün strateji əhəmiyyət daşıyır.

Tədbirlər çərçivəsində Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya hökuməti sədrinin müavini Aleksandr Novak arasında keçirilən görüşlər də xüsusi əhəmiyyət kəsb edib. Bu danışıqlar hökumətlər və nəqliyyat strukturları səviyyəsində əlaqələrin daha da dərinləşdirilməsinə xidmət edir. Bununla yanaşı, "Şimal-Cənub" dəhlizinin qərbə doğru genişləndirilməsi, yəni Zəngəzur dəhlizi vasitəsilə Ermənistan istiqamətində çıxış məsələsi də müzakirə olunub. Mövcud nəqliyyat xətləri üzərindən Ermənistanla yükdaşımaların aparılması imkanları müsbət qiymətləndirilib.

Əsas marşrut Rusiyanın şimal limanlarından başlayaraq, Azərbaycan və İran üzərindən Fars körfəzinə və Hind okeanına çıxışı nəzərdə tutur. Buradan isə Afrika, Hindistan və Cənub-Şərqi Asiya bazarlarına yol açılır. Alternativ qol isə Azərbaycan, Ermənistan, Naxçıvan və Türkiyə üzərindən Aralıq dənizinə çıxışı təmin edir və gələcək üçün perspektivli marşrut kimi dəyərləndirilir",- deyə o vurğulayıb.

Politoloq əlavə edib ki, Bakıda keçirilən tədbirlər son dərəcə məhsuldar olub. Aparılan danışıqlar və əldə olunan razılaşmalar regionda nəqliyyat və logistika sahəsində yeni imkanlar açır. Proseslər dinamik şəkildə davam edir, inkişaf tempi zəifləmək əvəzinə, daha da güclənir və gələcəyə nikbin baxış formalaşdırır.

## Azərbaycanın həyata keçirdiyi infrastruktur layihələri beynəlxalq dəhlizlərin inkişafına imkanlar yaradır

**"Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında problemlərin olmasına baxmayaraq, biz nəqliyyat-tranzit sahəsində faydalı əməkdaşlıq əlaqələrimizi davam etdiririk. Əsas məsələ ondan ibarətdir ki, biz bir yerə toplaşıb məsələləri müzakirə edib inkişafa doğru irəliləyirik. MDB Dəmiryol Nəqliyyatı Şurasının iclasları buna bariz nümunədir".**



Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı Trans-Avrasiya Nəqliyyat üzrə Beynəlxalq Koordinasiya Şurasının (TABKŞ) baş katibi Mixail Qonçarov deyib. O bildirib ki, TABKŞ-də 20 üzv ölkə var və bu ölkələr nəqliyyat dəhlizlərinin inkişafı üçün səylərini birləşdirib.

"Müasir dünyada nəqliyyat dəhlizləri, xüsusilə də dəmir yolları iqtisadi zərurətdir. Bu sahədə əməkdaşlıq bütün iştirakçılar üçün səmərəlidir və iqtisadi baxımdan faydalıdır. Beynəlxalq dəhlizlərlə yükdaşımaların həyata keçirilməsi dövlətlərin ən əsas məqsədidir. Buna görə də istər "Şimal-Cənub", istərsə də "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizlərinin inkişaf etdirilməsi üzv dövlətlərin üzərinə böyük məsuliyyət qoyur və dövlətlər də bu işləri yerinə yetirirlər. İnfrastruktur layihələrin həyata keçirilməsi hər bir dövlətin özü üçün daha faydalıdır. Lakin Azərbaycanın həyata keçirdiyi infrastruktur layihələri beynəlxalq dəhlizlərin inkişafına və genişlənməsinə imkanlar yaradır. Bu layihələr yükdaşımanın sayının və həcminin artmasına səbəb olur", - deyən M.Qonçarov əlavə edib ki, Azərbaycanın nəqliyyat və tranzit infrastrukturu beynəlxalq dəhlizlərin inkişafına töhfə verir.

İQTİSADİYYAT

# İlham Əliyevin logistika siyasəti real nəticələrə hesablanır

## Zəngəzur dəhlizi əlavə 15 milyon ton yük daşınmasına imkan yaradacaq



**Bu gün dünyada baş verən qlobal geosiyasi proseslər fonunda mühüm ticarət marşrutlarına nəzarət uğrunda ciddi mübarizə gedir. Çünki müasir dünyanın iqtisadi proseslərində istehsal və ixracın sabit olması başlıca şərtdir. Bunu təmin edən əsas şərt isə təhlükəsiz ticarət dəhlizlərinin olmasıdır.**

Amma bu gün məlum səbəblərdən dünyanın üç əsas ticarət marşrutundan ikisi tam fəaliyyət göstərə bilmir. Qırmızı dəniz-Süveyş kanalı marşrutunda ticarət Yəməndəki silahlı husilərin hücumları nəticəsində məhdudlaşıb. Buradan ancaq husilərin icazə verdikləri dövlətlərin bayrağı altında üzən gəmilər keçə bilir. Rusiya-Ukrayna müharibəsi isə təkcə iki ölkəyə ziyan vurmur. Bu savaş həmçinin Trans-Sibir nəqliyyat marşrutu üzərindən Asiya ilə Avropa arasında aparılan ticarətə də ciddi maneə törədir.  O üzdən Asiya ilə Avropa arasında təhlükəsiz və iqtisadi cəhətdən səmərəli marşrutun formalaşmasına ehtiyac yaranıb.

İndi aydın görünür ki, illər öncə Prezident İlham Əliyev tərəfindən aparılan logistika siyasəti təkcə ölkəmiz deyil, bütün dünya üçün əhəmiyyətli bir siyasi gedişdir. Bakı-Tbilisi-Qars dəmir yolu çəkiləndə hələ dünya indiki kimi gərgin deyildi. Amma dövlətimizin başçısı hər zaman olduğu kimi, bu layihədə də gələcəkdə baş verəcək siyasi prosesləri düzgün qiymətləndirməyi bacardı. Həmin uzaqgörən siyasət sayəsində Azərbaycan bu gün dünya logistikasında ən əhəmiyyətli ölkəyə çevrilib. Bunu dostlarımız da, düşmənlərimiz də görür və etiraf edirlər.

Sözsüz ki, bu məsələdə Azərbaycanın coğrafi mövqeyi önəmli rol oynayır. Lakin əsas məsələ buna öncədən hazır olmağımızdır. Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, biz bununla bağlı nəhəng infrastruktur layihələri icra etmişik, baxmayaraq ki, buna mane olmaq istəyən beynəlxalq güclər olmuşdur. Məsələn, həmin qüvvələr Bakı-Tbilisi-Qars marşrutunun transmilli banklar vasitəsilə maliyyələşməsinə imkan vermirdi. Belə olan halda Azərbaycanla Türkiyə ərazilərindəki dəmir yollarının yenidən qurulmasını öz vəsaitləri hesabına maliyyələşdirməyə qərar verdilər. Gürcüstanın isə belə bir imkanı olmadığından Prezident İlham Əliyev qətiyyət göstərərək layihəyə mane olmaq istəyən qüvvələrin müqavimətini qıraraq dəmir yolunun Gürcüstan ərazisindən keçən hissəsinin maliyyələşdirilməsi üçün 1 milyard dollara yaxın vəsait ayıraraq məsələni həll etdi.

Ardınca Prezident İlham Əliyev Orta dəhlizin dünyanın bir nömrəli ticarət marşrutuna çevrilməsi üçün logistika diplomatiyasına başladı. Çinlə, Mərkəzi Asiya ölkələri ilə səmərəli danışıqlar apardı və onları vahid maraqlar ətrafında birləşdirdi. Bununla yanaşı, Türkiyə və Gürcüstanla da mühüm razılaşmalar əldə etdi. Ən vacibi  isə yeni marşrut axtarışında olan Avropanı inandıra bildi. Bunun nəticəsi olaraq Avropa İttifaqı Orta dəhlizin imkanlarının genişlənməsi üçün 10 milyard avro həcmində kredit ayırdı.

Prezident İlham Əliyevin apardığı xarici siyasəti izlədikdə aydın görünür ki, dövlətimizin başçısı Azərbaycanın dəstək verdiyi layihələrə qarşı çıxan ölkələri birgə maraqlar çərçivəsində birləşdirməyi bacardı. Məsələn, hər vəchlə Orta dəhlizə və Zəngəzur dəhlizinə (TRIPP) qarşı çıxan İran və Rusiya  bu gün layihənin bir parçasına çevriliblər. Prezident qətiyyətlə, səbirlə danışıqlar apararaq buna nail olub. Beynəlxalq müstəvidə də dövlətimizin başçısının bu siyasi məharəti yüksək qiymətləndirilir.

Məlum olduğu kimi, Türkmənistanın özünəməxsus xarici siyasəti var və bu Mərkəzi Asiya ölkəsi çox məsələlərdə neytrallıq göstərir və həmin səbəbdən bir sıra layihələrdən kənarda durmağa üstünlük verir. Ancaq Prezident İlham Əliyev bu ölkənin də Orta dəhlizlə bağlı dünya səhnəsinə çıxmasında yardımçı oldu. Dövlətimizin başçısı bu uğura təkcə diplomatik vasitələrdən istifadə etməklə deyil, tarixdən gələn qardaşlıq bağları və milli kimliyimiz hesabına imza atdı. Prezidentin belə münasibəti təbii ki, Türkmənistanda da yüksək dəyərləndirildi. Bunun nəticəsidir ki, qardaş ölkənin Türkmənbaşı limanı Orta dəhlizin mühüm seqmentinə çevriləcək. Üstəlik, bu ölkə gələcəkdə öz enerji resurslarını Azərbaycan üzərindən Türkiyə və Avropa bazarına çıxaracaq.

Hər bir qlobal ticarət marşrutunun əhəmiyyəti onun iqtisadi cəhətdən səmərəli və təhlükəsiz olmasıdır. Bu istiqamətdə Azərbaycanın apardığı siyasət Çin və Avropada yüksək qiymətləndirilir. Belə ki, Prezident İlham Əliyev Orta dəhlizi rəqəmsallaşdırmaqla bürokratik əngəlləri aradan qaldırmaq üçün uğurlu siyasət aparır. Azərbaycan, Qazaxıstan, Gürcüstan bununla bağlı razılaşıb, yaxın vaxtlarda Türkiyənin də buna qoşulacağı bildirilir. Bununla yanaşı, bütün dəhlizlər üçün vahid tarif anlaşması istiqamətində də ölkəmiz aktiv siyasət aparır və müəyyən razılaşmalar da əldə olunub. Bu da Orta dəhlizin işlək marşrut kimi əhəmiyyətini artırır.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər təkcə region üçün deyil, dünya üçün də yeni bir reallıq yaradıb. Bu qələbə təkcə regional səviyyədə yox, həm də qlobal səviyyədə yeni siyasi və iqtisadi yanaşmaların meydana gəlməsinə səbəb olub. Avqustun 8-də Vaşinqtonda ABŞ liderinin şahidliyi ilə Azərbaycanla Ermənistan arasında Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı anlaşmanın imzalanması, ölkəmizin (C5+1) layihəsinə qoşulması qələbəmizin yaratdığı yeni tarixi reallıqlardır. Azərbaycan tarixi torpaqlarını erməni işğalından azad etməklə ölkəmizin qlobal geosiyasi proseslərdəki rolunu artırıb. O üzdən istər regionda, istərsə də bir çox transmilli layihənin həllində ölkəmiz söz sahibidir.

Azərbaycan qələbədən sonrakı yeni vəziyyətin qlobal əhəmiyyətini yaxşı dərk etdiyi üçün dərhal Zəngəzur dəhlizinin (TRIPP) açılmasını gündəmə gətirdi, baxmayaraq ki, həmin dövrdə Ermənistan dəhlizin açılmaması üçün siyasət aparırdı. Buna rəğmən, Azərbaycanla Türkiyə Zəngəzur dəhlizinin (TRIPP) açılmasına olan böyük inamdan irəli gələrək öz ərazilərində yol çəkilişinə başladılar. Hazırda Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyəti üçün Azərbaycan ərazisində çəkilən dəmir və avtomobil yollarında işlərin çox hissəsi görülüb və gələn ilin ortalarında işlər tam yekunlaşacaq. Paralel olaraq Naxçıvan Muxtar Respublikasında yeni avtomobil və dəmir yollarının çəkilməsi istiqamətində işlərə start verilib. Həmin işlərin də vaxtında yekunlaşacağı şübhəsizdir.

Zəngəzur dəhlizinin (TRIPP) əhəmiyyəti barədə çox danışılıb, çox yazılıb. Öncə onu vurğulayaq ki, bu dəhlizin fəaliyyətə başlaması Orta dəhlizlə ildə təxminən əlavə olaraq 15 milyon ton yük daşımaq imkanı qazanılacaq. Digər tərəfdən, o, Orta dəhlizin texniki imkanlarını genişləndirəcək, yükləri qısa yolla Türkiyəyə və bu ölkənin üzərindən körfəz ölkələrinə daşınmasına şərait yaradacaq. Bir sözlə, Zəngəzur dəhlizi (TRIPP) Orta dəhlizin dünyanın yeni bir bazarına çıxışını təmin edəcək. Ondan həm ölkəmiz, həm tərəfdaşlarımız, həm də bu marşrutdan istifadə edən ticarət partnyorlarımız qazanacaq, dünyaya iqtisadi rifah və sülh gələcək. Bu qlobal layihənin müəllifi isə Azərbaycan və onun lideri İlham Əliyevdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

**Dünyanın nəbzi artıq böyük şirkətlərdə deyil, kiçik otaqlarda, kofe masalarının arxasında, kompüter ekranlarının işığında yaranan ideyaların ritmi ilə döyünür. Ona görə də bu gün  cəmiyyətin yenilik axtarışının, gənc beyinlərin cəsarətinin və gələcəyə olan inamın daşıyıcısı olan startaplara daha çox ehtiyacı var.**



# Gənc sahibkarlara dövlət dəstəyi

## Startaplar ideya və imkanları reallığa  çevirirlər

Çünki müasir dövrün inkişaf tempini artıq çevik düşüncə və sürətli qərarvermə diktə edir.

Bu sistem hər gün yüzlərlə insanı özünə çəkir. Əsas səbəb də həmin mühitdə məhdudiyyətlərin deyil, imkanların söz sahibi olmasıdır. Böyük riskin ardınca böyük uğurun gəldiyini bilən gənc təşəbbüskarlar öz ideyalarını reallığa çevirmək üçün yarışır, ölkələrin innovasiya xəritələrini yenidən cızırlar. Startaplara indi  biznes modeli olmaqla yanaşı, dəyişən dünyanın sürətli tempinə uyğunlaşan yaradıcılar da demək olar. Startap əslində nədir? Sadə  dillə təsvir etsək, bu, yenilikçi bir ideyanın ətrafında formalaşan, sürətlə böyümə potensialına malik, riskli, lakin bir o qədər də cəlbedici biznes modelidir. Startap ənənəvi şirkətdən fərqli olaraq, əvvəlcə kiçik bir ideya kimi yaranır, daha sonra düzgün strategiya, çevik yanaşma və innovativ düşüncə ilə böyük bir layihəyə çevrilə bilər. Mahiyyətində dəyişiklik axtarışı dayanır, köhnə üsulları təkrarlamaq əvəzinə onları yeniləməyə üstünlük verir. Məhz buna görə startaplar texnologiyadan tutmuş təhsilə, sağlamlıqdan maliyyəyə qədər bütün sahələrə dinamizm gətirir və inkişafın əsas lokomotivlərindən birinə çevrilir.

Bu mənada Azərbaycanda startap ekosistemi son illər özünəməxsus inkişaf mərhələsinə qədəm qoyub. Gənclərin innovasiyaya marağı, rəqəmsallaşmanın sürətlənməsi və dövlətin bu sahəyə ayırdığı diqqət ölkədə yaradıcı təşəbbüslərin sayını artırıb. İndi maraqlı ideyası olan gənclər özlərini tək hiss etmirlər. Texnoparklar və müxtəlif mentorluq proqramları onlara həm bilik verir, həm də praktiki dəstək göstərir. Azərbaycanda startaplar daha çox rəqəmsal xidmətlər, təhsil texnologiyaları, logistika, kənd təsərrüfatı innovasiyaları və maliyyə texnologiyaları kimi sahələrdə  boy göstərirlər ki, ba da ölkənin inkişaf strategiyası ilə üst-üstə düşür. İqtisadiyyatın şaxələnməsi  və qeyri-neft sektorunun güclənməsi üçün məhz bu cür çevik, tez uyğunlaşan layihələrə ehtiyac var.

Bütün bu inkişaf tendensiyası fonunda dövlət dəstəyinin rolu xüsusilə diqqət çəkir və bu sahədə ən mühüm mexanizmlərdən biri  Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) startaplara təqdim etdiyi "Startap'" şəhadətnaməsidir. Qeyd edək ki, 2021-ci ildən etibarən innovativ məhsul və xidmətlərin istehsalı məqsədilə startap layihələri üçün təqdim olunan "Startap" şəhadətnaməsi almış sahibkarların sayında nəzərəçarpan  artım müşahidə olunur. KOBİA-nın məlumatına görə,  indiyədək hüquqi və fiziki şəxslər olmaqla, ümumilikdə 220 sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.

Şəhadətnamə alan startaplar əsasən FinTech, EdTech, HealthTech, AgriTech, GreenTech, rəqəmsal turizm, nəqliyyat-logistika xidmətləri və süni intellekt sahələrində fəaliyyət göstərirlər. Onlardan 43-ü regionlardan, 177-si isə Bakı şəhərindəndir. Qeyd edək ki, şəhadətnamə alan sahibkarların 31-i qadındır.  Onu da  əlavə edək ki, İnnovativ layihələr üçün KOBİA tərəfindən ayrılan 20 min manata qədər qrant dəstəyi startapların öz ideyalarını reallığa çevirməsinə və sürətli inkişafına təkan verir. Bu dəstəyin nəticəsində yaranan yeni məhsul və xidmətlər, eləcə də startaplar arasında qurulan əməkdaşlıqlar, ölkəmizdəki innovativ ekosistemin daha da canlanmasına və fəallaşmasına xidmət edir.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda startap investisiyalarının istiqamətləri dəyişir və xüsusilə süni intellekt və texnoloji innovasiyalara maraq getdikcə artır. Son bir ildə startap investisiyaları süni intellektə (Sİ), xüsusilə generativ Sİ layihələrinə yönələn sərmayələrin artması ilə ölkəmizdə innovasiya dalğasının gücləndiyini açıq göstərir. KOBİA-nın məlumatına görə, marağın ən çox yönəldiyi sahələr sırasında maliyyə texnologiyaları (FinTech), elektron ticarət və rəqəmsal xidmətlər xüsusi yer tutur. Yerli bazarda, həmçinin təhsil texnologiyaları (EdTech) və kənd təsərrüfatı üzrə innovativ layihələr diqqət mərkəzindədir. Xüsusilə texnoloji yeniliklərə və avtomatlaşdırmaya əsaslanan layihələrə olan marağın sürətlə artması isə ölkədə startap ekosisteminin dinamizmini açıq şəkildə göstərir. Dövlət dəstəyi isə məhz bu sahələrin inkişafına və startap ekosisteminin güclənməsinə mühüm təkan verir.

Xoş haldır ki, yerli investorlar daha çox real bazar ehtiyaclarını qarşılayan, kommersiya potensialı yüksək olan startaplara maraq göstərirlər. Xüsusilə biznes proseslərinin avtomatlaşdırılması, müştəri təcrübəsinin rəqəmsallaşdırılması və xidmət keyfiyyətinin artırılmasına yönəlmiş yeniliklər diqqət mərkəzindədir. İnvestorların üstünlük verdiyi sahələrdən biri də kənd təsərrüfatına innovativ yanaşmadır. Aqrar sahədə rəqəmsal idarəetmə, logistik zəncirlərin optimallaşdırılması və istehsalyönümlü  innovasiya layihələri ölkədə kənd təsərrüfatının modernləşməsinə və məhsuldarlığın artırılmasına mühüm töhfə verir. Unutmayaq ki, sosialyönümlü layihələrə - təhsilə, sağlam həyat tərzinə olan investor marağı da ekosistemin daha balanslı şəkildə  inkişafını təmin edir. Nəticə olaraq KOBİA yerli bazarda investorların prioritetlərini belə yekunlaşdırır: "Qeyd edə bilərik ki, yerli bazarda praktik, dayanıqlı və ixrac potensialı olan startaplara üstünlük verildiyi müşahidə olunur".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Demoqrafiya

# 9 ayda ölkə əhalisinin sayı 28,7 min nəfər artıb

**Cari il oktyabr ayının 1-i vəziyyətinə görə, ölkə əhalisinin sayı 10 milyon 253 min 647 nəfərə çatıb. Bu, ilin ilk 9 ayında əhalinin sayının 28 min 758 nəfər və ya 0,3 faiz artdığı deməkdir.**

Dövlət Statistika Komitəsi bildirir ki, ölkə əhalisinin 54,4 faizi şəhərlərdə yaşayır. 45,6 faizi isə kənd sakinidir. Göstərilən dövrdə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasının, 23 faizi Bakı şəhərinin, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,6 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,8 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,2 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,2 faizi Dağlıq Şirvan, 3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük  Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, bu il noyabrın 1-dək işğaldan azad edilmiş ərazilərin bərpa olunmuş yaşayış məntəqələrinə 20 min 879 nəfərdən ibarət 5256 ailənin qayıdışı təmin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi məlumata görə, həmin tarixə Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxslərin və onların ailə üzvlərinin sayı isə 38 min 917 nəfər təşkil edib. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində təhsil alan 2154 nəfər tələbə də nəzərə alınmaqla, işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşmış əhalinin ümumi sayı 61 min 950 nəfər olub.

Məlum olduğu kimi, Azərbaycanda əhalinin sayı, əsasən, təbii artım və qismən ölkəmizə daimi yaşamağa gələnlərin hesabına artır. Bu, yenə də belədir, baxmayaraq ki, təbii artımın səviyyəsi əvvəlki illərə nisbətən aşağı düşüb. Belə ki, cari ilin 9 ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 72 min 210 doğulan körpə qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici əhalinin hər 1000 nəfərinə azalaraq 10,1-dən 9,4-ə düşüb.

Lakin hər 1000 nəfərə hesabı ilə doğumun səviyyəsi Dağlıq Şirvan (12), Lənkəran-Astara (11,4), Qarabağ (11,2), Şərqi Zəngəzur (11), Mil-Muğan (10,8), Şirvan-Salyan (10,7), Qazax-Tovuz, Quba-Xaçmaz və Mərkəzi Aran (10,5) iqtisadi rayonlarında ölkə göstəricisindən, yəni 9,4-dən yüksək olub.



Ölkə üzrə dünyaya göz açan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,1 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,9 faiz olub. Bir daha vurğulayaq ki, dəfələrlə deyilən və cəmiyyəti çox narahat edən səbəb sarıdan doğulan oğlanların sayı təbii normadan artıqdır. Yəni təbii norma oğlanların 51, qızların isə 49 faiz olmasıdır. Təəssüf ki, hələ həyata gəlməyə macal tapmamış qız uşaqlarına cəllad əli uzadanların sayı azalmır.

Elə buradaca onu da qeyd edək ki, deyilənlər ölkədə qadınların sayının azalmasına səbəb olur. Hazırda əhalinin 49,8 faizini kişilər, 50,2 faizini qadınlar təşkil edir və zərif cinsin sayı ötən dövrə nisbətən azalıb.

Dünyadan köçənlərin sayı isə bu ilin əvvəlindən çoxalıb. Belə ki, yanvar-sentyabr ayları ərzində ölkədə 44 min 409 ölüm halı qeydə alınıb və bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə həmin göstəricinin 5,7-dən 5,8-ə qədər artması deməkdir.

Təəssüf ki, nikahların sayı azalıb: cari ilin 9 ayında 36 min 332 nikah bağlanıb. Onların sayı hər 1000 nəfər hesabı ilə azalaraq 4,8-dən 4,7-yə düşüb.

Lakin nikaha daxilolmanın səviyyəsi bir sıra bölgələrdə ölkə göstəricisindən yüksəkdir. Bu, Şərqi Zəngəzur (5,8), Qarabağ (5,7), Dağlıq Şirvan və Lənkəran-Astara (5,2), Bakı, Quba-Xaçmaz və Mərkəzi Aran (4,8) iqtisadi rayonlarına aiddir.

Beləliklə, demoqrafiyamızın vəziyyətini göstərən rəqəmlər sırasında ürəkaçanlar da az deyil. Boşanmalar azalıb. Bunu Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən verilən rəqəmlər göstərir: 9 ay ərzində 15 min 480 boşanma halı qeydə alınıb ki, bu da əhalinin hər 1000 nəfərinə onların sayının ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,1-dən 2-yə düşməsi deməkdir.

Miqrasiya saldomuz da müsbətdir - 957 nəfər. Belə ki, yanvar-sentyabr aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 2521 nəfər gələn, ölkədən 1564 nəfər həmişəlik gedən qeydə alınıb. Bunlar isə sıradan bir rəqəmlər deyil. Bu, Azərbaycanı özünə daimi yaşayış yeri seçənlərin sayının getdikcə artdığını göstərir. Bu da bir danılmaz həqiqətdir ki, insan hər zaman dolanışığının yaxşı olduğu, gününün xoş keçdiyi yerdə daimi məskunlaşmağı qərara alır.

Xatırladaq ki, son illər bu tendensiya - miqrasiyanın müsbət olması davamlı xarakter daşıyır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Ölməzliyə qovuşanlar

# Arzuları reallaşan *qəhrəman*

**Bütün yaşıdları kimi onun üçün də müharibə baxdığı sənədli və bədii filmlərdə gördüyü səhnələr, bir də yaşlı insanların danışdıqları xatirələr idi. Gültəkin Əsgərova 1960-cı il noyabrın 20-də Bakı şəhərində dünyaya göz açmışdı. Uşaqlığı sülhün, əmin-amanlığın bərqərar olduğu illərdə keçirdi. Hərdən böyüklərdən eşidirdi: "Yaxşı ki, siz bizim kimi müharibənin ağrı-acısını görməmisiniz, odundan, alovlarından keçməmisiniz".**



Onda ağlına gəlməzdi ki, gəncliyi müharibənin qanlı-qadalı illərinə düşəcək. Dəhşətli müharibənin könüllü iştirakçısı, hətta qəhrəmanı olacaq. Uzaq-uzaq kəndlərin, şəhərlərin, ölkələrin deyil, öz doğma vətəninin ərazilərinin azadlığı uğrunda canını fəda edəcək. Və ən yüksək ada - "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüləcək...

## Cəbhəyə həkimlər lazım idi...

Orta məktəbdə oxuyanda gələcəklə bağlı tükənməz arzuları, şirin xəyalları vardı. O, insanların sağlam, xoşbəxt olmasını istəyirdi. Özünə müqəddəs bir peşə seçdi. Sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki Azərbaycan Dövlət Tibb Universiteti) verdi. 1985-ci ildə ali təhsilini başa vurub 8 saylı Təcili Yardım stansiyasında fəaliyyətə başladı.

Gültəkin Əsgərova ilk dəfə atəş səslərini, güllələrə tuş gələn, öz qanına bələnərək can verənləri Qarabağda deyil, Bakıda eşitdi və gördü. 1990-cı il yanvarın 20-də SSRİ (Sovet Sosialist Respublikalar İttifaqı) rəhbərliyi qoşun hissələrini meydanlara çıxararaq Azərbaycanın müstəqilliyini tələb edən, "azadlıq" deyə hayqıran azərbaycanlıların səsini batırmaq, gözlərinin odunu alaraq susdurmaq üçün göndərdi. Ancaq Azərbaycan xalqı cəsarətini, vətənpərvərliyini, mərdliyini, igidliyini nümayiş etdirdi. Sovet qoşun hissələrinin amansızlıqla onlara tuşladığı silahın, üzərlərinə gələn hərbi texnikanın qarşısından geri çəkilmədilər. Gültəkin Əsgərova da o zaman yaralılaraköməyə getdi. O, həkim kimi əlindən gələni əsirgəmədi.

Gültəkin Əsgərova 1991-ci ildən Uroloji kliniki xəstəxanada çalışmağa başladı. Artıq ailə qurmuş, ana olmuşdu...

O vaxt respublikada ağır günlər yaşanırdı. Azərbaycan xalqı məmləkətini azad görmək, müstəqil ölkədə yaşamaq arzusuna ağır sınaqlardan keçərək çatırdı. Sovet hökuməti tarixin səhnəsindən gəldiyi kimi, gərginliklər yaradaraq, iğtişaşlar salaraq silinirdi. Son çağlarında da nifaq toxumu səpir, münaqişə ocağını körükləyir, məkrli xislətli, mənfur, işğalçı ermənilərə meydan verir, o dövrün ən yaxşı silah-sursatı, hərbi texnikası ilə təmin edirdi. 1980-ci illərin axırlarından Qarabağda dinc azərbaycanlılara hücum edən təcavüzkar ermənilər sovet ittifaqı rəhbərlərindən aldıqları hər cür yardımlarla, hərbi güclə daha da azğınlaşırdılar.

Sovet hakimiyyətinin süqutundan sonra Azərbaycanda bütün sahələrdə böhran yaranmışdı. Müstəqilliyinə yeni nail olmuş, hələ milli ordusunu formalaşdırmağa macal tapmamış respublikamızı böyük qəddarlıqla müharibəyə sürükləmişdilər.

Azərbaycanın hər yerində xalq narahatlıq, nigaranlıq içərisində idi. Həyəcanla Qarabağdan gələn xəbərləri gözləyirdilər. Ölkənin qeyrətli övladları vətəninin ağır günlərində ayağa qalxdılar. Qarabağda, Şərqi Zəngəzurda erməni işğalçılarının amansızlıqla törətdikləri qırğınlara, qətliamlara, soyqırımlarına məruz qalan soydaşlarının harayına yetişmək üçün könüllü olaraq döyüşə yollandılar.

Artıq Qarabağ və Şərqi Zəngəzur torpaqları atəş səslərinə bürünmüşdü. Azərbaycanın mərd övladları düşmən qədər güclü silah-sursata, hərbi texnikaya malik olmasalar da, onlardan daha ürəkli, daha cəsur idilər. Hər bir döyüşçünün məqsədi son nəfəsinədək vuruşmaq, vətən torpağının bir qarışını belə, yağıya verməmək idi. Onlar sinələrini düşmən güllələrinə sipər etmişdilər. Qanlı döyüşlərin davam etdiyi bir vaxtda cəbhəyə həkimlər lazım idi...

## "Mən qələbənin sonuna qədər buradayam"

Gültəkin Əsgərova 1992-ci il aprelin 3-də qızı Əminənin doğum gününü qeyd etdi. Məclis qurdu. Səhəri gün - 1992-ci il aprelin 4-də isə o, səkkiz yaşlı qızı Əminəni anası Rəfiqə xanıma əmanət edib könüllü olaraq cəbhəyə yollandı.

O, Turşsuda, Şuşa xəstəxanalarında və Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərdi.

1992-ci ildə Şuşa şəhərində yerləşən həbsxananın qapısının açılıb oradakıların azad edilməsində xidməti olanlardan biri də Gültəkin Əsgərova idi. Əgər həbsxananın qapısı açılmasaydı, şəhəri ələ keçirən işğalçı ermənilər orada olanları əsir götürəcəkdilər.

1992-ci il mayın 8-də Şuşa şəhərinin yağıların əlinə keçməsi Gültəkin Əsgərovanı sarsıtdı. O, Şuşanın işğalından bir gün sonra bu doğma torpağı sonuncu tərk edənlərdən biri oldu.

Azyaşlı qızı Əminə ilə qoyub getdiyi anasını düşünürdü. Rəfiqə xanımın onsuz da həyəcan, nigaranlıq, təşviş içərisində cəbhədə olan qızından hər an xəbər gözlədiyini bilirdi. Anasının narahatlığını az da olsa azaltmaq, arxayınlaşdırmaq üçün ona göndərdiyi məktubda yazırdı: "Ana, salam. Mən sağ və salamatam, hər şey normaldır. Bizə yaxşı yemək verirlər. Mən qələbənin sonuna qədər buradayam. Şuşa alınana qədər! Bəlkə də indi alınmadı…".

Gültəkin Əsgərova Şuşanın işğalından sonra Laçının, daha sonra Qubadlının müdafiəsində iştirak etdi. O, 1992-ci il mayın 14-də Ağdam istiqamətində gedən döyüşlərə yollandı. Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi xidmət göstərirdi.

Onun tibbi xidməti üçün Aranzəmin yüksəkliyinin ətəyində yer ayrıldı. Ora yaralanan hərbçilər gətirilməli idi. Atəş səslərinin gücləndiyini eşidən Gültəkin Əsgərova dözüb gözləyə bilmədi. O, Aranzəmin yüksəkliyinə qalxdı. 1992-ci il iyulun 19-da Aranzəmin yüksəkliyi uğrunda gedən döyüşdə otuz bir yaşlı Gültəkin Əsgərova şəhid oldu. Bakıda Şəhidlər xiyabanında dəfn edildi. 1993-cü il noyabrın 20-də Gültəkin Məlik qızı Əsgərova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü.

Uzun illər sonra - 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsində və 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatlarında Gültəkin Əsgərovanın ən böyük arzusunu Müzəffər Azərbaycan Ordusu reallaşdırdı. Qarabağ və Şərqi Zəngəzur torpaqlarını Ermənistanın işğalından azad etdilər. Gültəkin Əsgərova kimi qəhrəmanlar yetirən Azərbaycan əbədi olaraq ərazi bütövlüyünə, suverenliyinə qovuşdu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Uğura imza atanlar

# Vətənə xidmətə ruh verən bəstəkar



**Azərbaycan musiqi sənətində Vətənə sevginin, qürurun və milli ruhun ən təsirli ifadəçilərindən biri olan Anar İlhamlı illərdir yaratdığı marş və vətənpərvərlik ruhlu mahnıları ilə tanınan və rəğbət qazanan sənət adamıdır. Onun "Azərbaycan bayrağı", "Zəfər döyüşü", "Vətən üçün doğulduq", "Azərbaycan əsgəri-ən igid əsgər" kimi könüllərdə məskən salan əsərləri təkcə musiqi nümunəsi deyil, həm də milli birliyə və qəhrəmanlığa çağırışıdır.**

Vokalçı-bəstəkar Məmmədbağırov Anar İlham oğlu (Anar İlhamlı) 1983-cü ildə Şəki şəhərində anadan olub. Anar deyir: "Musiqiçi ailəsində böyümüşəm. Atam musiqi müəllimi idi. Uşaq vaxtı yuxudan oyananda görürdüm ki, başımın üstündə muğam ifa edir. Beləliklə, musiqi ruhuma, qanıma işlədi. Musiqi mənim üçün ana laylası, ata nəsihətidir".

1997-ci ildə Şəkidə keçirilən milli vokal sənətinin banisi Bülbülün 100 illik yubileyinə həsr olunmuş müsabiqədə "Sevgili canan ", "Sənsiz", "Ölkəm " adlı romansları ifa edən Anar müsabiqənin qalibi olur.

Anar deyir ki, özünü dərk edəndə anlayıb ki, Tanrının ona cızdığı yolla gedir. Bu bir tale yoludur. İlk musiqi təhsilini Şəkidə alan ifaçı kiçik yaşlarından rayonda keçirilən bütün dövlət tədbirlərinin iştirakçısı olur. "Hələ Şəkidə olanda hərbi hissələrdə, əsgər və zabitlərimizin qarşısında konsert proqramları ilə çıxışlar edərkən qürurlanardım. O zaman ürəyimdən keçirdi ki, kaş hərbi marşlar yazaydım, igid oğullarımız bundan ruhlanıb düşmən üzərinə şığıyaydılar", - deyə Anar bildirir.

Gənc ifaçı musiqi təhsilini davam etdirmək üçün 2000-ci ildə Bakıya gəlib konservatoriyaya daxil olur. Xalq artistləri Ağaxan Abdullayevdən, İslam Rzayevdən muğam dərsi alır. Əməkdar artist Teymur Əmrahdan vokalın sirlərini öyrənir. Anar həmin dönəmlərdən ifaçılıq sənəti ilə yanaşı, müsiqi yaradıcılığı ilə də məşğul olmağa başlayır.

Anar İlhamlı ilə söhbət edərkən dedi:

- Xalqımızın başına gətirilən müsibətlər, qanlı 20 Yanvar faciəsi, Xocalı soyqırımı, torpaqlarımızın işğal olunması, maddi-mədəni irsimizin məhv edilməsi içimə köz salmışdı. Ürəyim yanırdı. Torpaqlarımızın azad olunması üçün bir iş görməli olduğumu düşünürdüm. Anlayırdım ki, ilk növbədə gənclərimizdə vətənpərvərlik hisslərini gücləndirmək lazımdır. Musiqi ruhun səsidir. Mən döyşüçülərimizin ruhunu yüksəldən musiqilərin bəstələnməsinə daha çox önəm verdim.



Ruha can verən, əsgərləri döyüşə çağıran, onlarda qələbə ruhu yaradan musiqi də bir silahdır. Anar İlhamlı deyir ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində bir əsgər kimi çalışıb. Müharibə günlərində işğaldan azad olunmuş torpaqlarımızda Azərbaycan bayrağının dalğalanması vətənpərvər bəstəkara ilham verir. Bu günlərdə o, şair Ramiz Qusarçaylının sözlərinə "Azərbaycan bayrağı" mahnısını bəstələyir:

*Cəngidə cövlan yerim, cövlanda can yerimsən,*
*Barışda gül çələngim, savaşda qan yerimsən,*
*Sən mənim and yerimsən, mənim iman yerimsən,*
*Dalğalı ləngərlərin yelpiklənən yarpağı,-*
*Azərbaycan bayrağı !*

"Vətən üçün doğulduq", "Vətən", "Azərbaycan əsgəri ən igid əsgər" kimi vətənpərvər ruhlu mahnılar da şanlı salnaməmizin yazıldığı o günlərdə yaradılıb.

Müharibədən sonra da bəstəkar Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinə, sözləri və musiqisi özünəməxsus olan "Zəfər döyüşü" adlı mahnı yazıb.

Anar öz dəst-xəti olan bəstəkarlardandır. Onun bəstələrinin biri digərini təkrarlamır. Mövzular da, musiqi də rəngarəngliyi ilə seçilir.

Anar İlhamlının yaradıcılığında Elçin Mirzəbəylinin sözlərinə yazılmış "Qayıdış" marşının özünəməxsus yeri var:

*Gözünü aç, Qarabağ, yuxu deyil gördüyün,*
*30 illik ümiddir yaddaşına hördüyün,*
*Bir işıq topasıdır uzaqdan bəri gəlir,*
*Qəhrəman övladların qayıdır geri gəlir,*
*gəlir yurdun sahibi,  gəlir evin  yiyəsi,*
*Gəlir məğrur millətin, qalib əsgəri gəlir!*

Bəstəkarın "Qayıdış" marşı xalqımızın ən böyük arzusunun gerçəkləşməsini - torpaqlarımıza dönüş sevincini musiqidə yaşadan mənəvi bir simvoldur. O həm bəstəkar, həm də ifaçı kimi sənətini Vətənə borc bilir və yaratdığı hər əsərlə bu amalını daha da möhkəmləndirir.

100-dən çox musiqinin, əsgər marşının, musiqili kompozisiyanın, mahnının müəllifi, muğamlarımızın, xalq və bəstəkar musiqilərinin bənzərsiz ifaçısı, vokalist, bəstəkar Anar İlhamlı 2010-cu ildən Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Hərbi Orkestrində xidmət edir. O, qüsursuz xidmətinə və xidmətdə fərqləndiyinə görə Fövqəladə Hallar Nazirliyi tərəfindən yubiley medalları və fəxri fərmanlarla mükafatlandırılmışdır.

Anar İlhamlı bu gün Azərbaycan musiqisində vətənpərvərlik ruhunun yaradıcılarından biri kimi seçilir. Onun yaratdığı hər bir marş, hər bir musiqi nümunəsi xalqın yaddaşına hopan bir qürur sədasıdır. Sənətini Vətənə xidmət kimi dəyərləndirən bəstəkar, həm səhnədə, həm də xidmətdə göstərdiyi fədakarlıqla mənəvi bir məktəb formalaşdırıb. Anar İlhamlı kimi sənətkarlar Vətən sevgisini daha uca zirvələrə daşıyır və gələcək nəsillər üçün örnək yaradır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Lənkəranda şəhidin məzarı ziyarət olunub

**Mail Əzizov 28 avqust 2000-ci ildə Lənkəranın Şağlaküçə kəndində dünyaya göz açıb. 20 illik qısa ömrünün ziyarətgahı da bu kənddədir. Gül-çiçəyə qərq edilmiş şəhid məzarı. Yaşasaydı, 25 yaşı olacaqdı.**



44 günlük müharibə başlayanda Mail Mahir oğlu Əzizov ordu sıralarında hərbi xidmətdə idi. İlk gündən döyüşə atılmışdı. Mənfur düşmənə qarşı ölüm-dirim savaşında böyük şücaətlə döyüşürdü. Hərbi xidmətdə öyrəndikləri köməyinə gəlir, komandirin tapşırıqlarını məharətlə yerinə yetirirdi. Beləcə o, qısa ömründə böyük şücaətlər göstərdi, canını Vətən uğrunda qurban verdi. Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn igid noyabrın 26-da doğulduğu, boya-başa çatdığı kənddə dəfn olundu.

Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medallarına layiq görüldü.

Şəhidin xatirəsi əziz tutulur, məzarı tez-tez ziyarət olunur. Noyabrın 26-sı isə anım günüdür. Həmin gün Lənkəran şəhərinin rəhbərliyi, ictimaiyyətin nümayəndələri şəhidin qəbrini ziyarət edir, məzarı önünə tər güllər düzür, ruhuna dualar edirlər. Bu il də istisna olmadı. ŞİH-in başçısı şəhid ailələrinə göstərilən  diqqət və qayğıya görə onlara təşəkkür etdi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Şəhid ailəsinin evi təmir olunur



**Masallı rayon rəhbərliyi Köhnə Alvadı kəndində Birinci Qarabağ müharibəsi şəhidi Həsənov Zöhrab Məmmədxan oğlunun ailəsini ziyarət edib, onların qayğıları ilə maraqlanıb.**

RİH başçısı A.Əhmədov şəhid ailəsinin məişət şəraitinin yaxşılaşdırılması üçün inşa olunmuş yeni fərdi yaşayış evində gedən təmir işləri ilə tanış olub. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

***"Azərbaycan"***

# Horovlu kəndində daha 38 ailəyə evlərinin açarları təqdim olunub





Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Cəbrayıl rayonunun Horovlu kəndinə növbəti köç prosesi gerçəkləşib. Səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

AZƏRTAC xəbər verir ki, Horovlu kəndi bu gün 38 ailə olmaqla, 139 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub və öz doğma yurdlarına qovuşaraq, yaradılan gözəlliyi seyr ediblər. Horovlu kəndində 132 ailə olmaqla, 541 nəfərin məskunlaşması təmin olunub. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz və yüksəksürətli internetlə təmin olunub. Həmçinin Günəş panelləri quraşdırılıb. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış kəhrizlər bərpa edilib.

Kənddə 4,4 hektar ərazidə park kompleksi inşa olunub, Bayraq meydanı salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib. Növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Cəbrayıl rayonunun Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları təhvil alaraq evlərində məskunlaşıblar.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat




Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.

# 2026-cı il Qış Oyunlarının Olimpiya məşəli alovlandırıldı

## Məşəl 9 günə 2200 kilometr yol qət edəcək

**Məşəl qədim Olimpiyada alovlandırılıb və fevral ayında 2026-cı il Qış Olimpiya Oyunlarının keçiriləcəyi İtaliyaya aparılacaq.**



Təəssüf ki, budəfəki hava şəraiti təşkilatçılar üçün əlverişsiz olub və məşəlin alovlandırılması mərasimi möhtəşəm Olimpiya arxeoloji kompleksində deyil, Arxeologiya Muzeyinin daxilində keçirilib və minlərlə tamaşaçının planlaşdırılan toplaşmasına mane olub.

BOK prezidenti Kirsti Koventri mərasim zamanı duyğularını gizlətməyib: "İndi öz ofisim olan Olimpiya Akademiyasına getdik və bununla fəxr edirəm, sonra 2004-cü il Olimpiadasının kiçik muzeyini ziyarət etdik və bu, xatirələr yenidən canlandı. Düşünürəm ki, hər şey birdən ağlıma gəldi: bugünkü tədbirin əhəmiyyəti və mənasını, Olimpiya məşəlinin əhəmiyyətini və onun təkcə Olimpiya hərəkatında bizim üçün deyil, bütün dünya üçün nə demək olduğunu hiss etdim". Yunanıstan Prezidenti Konstantinos Tasulas vurğulayıb ki, qlobal geosiyasi gərginliklər qarşısında olimpizm mesajı və Olimpiya alovu çox vacibdir. Prezidentin dediyinə görə, bu, 2800 il əvvəl bizə heç bir dəyişiklik olmadan, dəyişməz şəkildə gələn bir mesajdır: "Bu, sülh, birlik və insan yaradıcılığı mesajıdır. Və indiki münaqişə, müharibə, parçalanma və qeyri-sabitlik dövründə buna hər şeydən çox ehtiyacımız var".

Bu arada, BOK Rusiya idmançılarının Oyunlarda iştirak etmə ehtimalını istisna etməyib. Ümumi sülh mesajının çatdırıldığı məşəlin yandırılması mərasiminin kuluarlarında Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Rusiya idmançılarının Milan və Kortinada keçiriləcək Qış Olimpiya Oyunlarında iştirak etmə ehtimalını açıq saxlayıb. "Euronews" telekanalının "davam edən danışıqlar zamanı yaxın günlərdə sülh razılaşması əldə edilərsə, bunun mümkün olub-olmayacağı" ilə bağlı sualına cavab olaraq Kirsti Koventri belə cavab verib: "Gözləməli və nə olacağını görməliyik".

Olimpiya məşəli 9 günlük estafet zamanı 2200 kilometr məsafəni, 23 prefekturanı və 7 bölgəni əhatə edəcək və ölkə daxilində 36 qarşılama mərasimi keçiriləcək. Məşəl dekabrın 4-də Panatinaikos stadionunda İtaliyaya yola düşəcək və 2026-cı il Qış Olimpiya Təşkilat Komitəsinin nümayəndə heyətinə təhvil veriləcək.

XXV Qış Olimpiya Oyunlarının açılış mərasimi gələn il fevralın 6-da Milandakı San Siro stadionunda keçiriləcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Möcüzənin tükənən gücü

## Antibiotiklərdən yersiz istifadə orqanizmə zərər gətirir

**Antibiotiklər tibb tarixinin ən möhtəşəm nailiyyətlərindən biri kimi insan həyatını dəyişdirib, bir vaxtlar ölüm hökmü sayılan infeksiyaları adi xəstəlik səviyyəsinə endirib. XX əsrin ortalarında antibiotiklərin kütləvi istifadəsi milyonlarla insanın həyatını xilas etdi, əməliyyatları təhlükəsizləşdirdi, doğuşdakı ölüm hallarını azaltdı, müharibələrdə itkilərin qarşısını aldı və tibb elminin inkişafına misilsiz sürət verdi. Lakin bu möcüzənin arxasında görünməyən bir təhlükə də yavaş-yavaş böyüyürdü - mikroblar müqavimət göstərirdi.**



Bu gün dünyada antibiotiklərə davamlı infeksiyalar hər il 1,2 milyon insanın ölümünə səbəb olur. Alimlər xəbərdarlıq edirlər ki, əgər yeni antibiotiklər hazırlanmasa və mövcud olanlar məsuliyyətsiz şəkildə istifadə olunmağa davam edilsə, 2050-ci ildə antibiotik müqaviməti hər il 10 milyon insanın ölümünə yol açacaq. Bu isə nəinki tibb elminin, hətta bəşəriyyətin əldə etdiyi bütün nailiyyətləri risk altına qoyur.

Təəssüf ki, həkim təyinatı olmadan antibiotik qəbul etmək, virus infeksiyalarında belə antibiotikə "əl atmaq", bir az hərarət yüksələn kimi antibiotik qəbul etmək problemi daha da dərinləşdirir. Bakteriyalar hər dəfə yanlış şəkildə istifadə olunan antibiotikdən "dərs alır", güclənir, nəticədə adi boğaz ağrısı, sidik yolu infeksiyası və ya pnevmoniya belə uzun sürən, çətin müalicə olunan təhlükəli xəstəliklərə çevrilir.

### Yalnız bakterial infeksiyalara qarşı təsirlidir

XX əsrin əvvəllərinə qədər sadə bir boğaz infeksiyası ölüm hökmü demək idi, pnevmoniya yüz minlərlə insanın həyatına son qoyurdu. Cərrahlar əlcəksiz əməliyyat edirdi, doğuşlarda infeksiya səbəbindən ölüm halları 50 faizdən çox idi. Mikroblar sürətlə yayılır, onları dayandıra bilən effektiv vasitə isə yox idi.

1928-ci ildə Londondakı Müqəddəs Məryəm Xəstəxanasında şotlandəsilli Böyük Britaniya bakterioloqu Aleksandr Fleminqin təsadüfən kəşf etdiyi penisilin tibb tarixinin dönüş nöqtəsi oldu. Göbələk koloniyasının ətrafındakı bakteriyaların məhv olduğunu görən Fleminq "Penicillium notatum"un bakteriya öldürücü maddə ifraz etdiyini müəyyənləşdirdi. Bunun praktiki istifadəyə verilməsi illər çəkdi, lakin 1940-cı illərdə Flori və Çeyn kimi alimlərin sayəsində penisilin İkinci Dünya müharibəsinin görünməyən qəhrəmanına çevrildi.

1940-1970-ci illər "antibiotiklərin qızıl dövrü" kimi tarixə düşdü. Streptomisin, tetrasiklin, eritromisin, sefalosporinlər və onlarla digər antibiotik növü həyatları xilas etdi. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, antibiotiklərin tətbiqi yoluxucu xəstəliklərdən ölüm hallarını 80 faizdən çox azaltdı. Artıq pnevmoniya, meningit, sifilis, vərəm ölüm hökmü deyildi, qeysəriyyə əməliyyatları, orqan transplantasiyası, kimyaterapiya kimi riskli tibbi prosedurlar təhlükəsiz həyata keçirilə bilirdi.

Təəssüf ki, uzun illər sonra Fleminqin 1945-ci ildə etdiyi "İnsanlar penisilindən ehtiyatsız istifadə etsələr, mikroblar davamlı olacaq" xəbərdarlığı reallaşdı. Antibiotiklərin həddən artıq, lazımsız və nəzarətsiz istifadəsi bakteriyalara özlərini qorumağı öyrətdi. Vaxtilə möcüzə sayılan penisilin bir çox bakteriyaya təsir etmir, çünki mikroblar penisilini parçalamağı bacaran fermentlər hazırlamağı öyrəndi.

Bilmək lazımdır ki, antibiotiklər yalnız bakterial infeksiyalara qarşı təsirlidir. Amma insanlar soyuqdəymə, qrip, laringit kimi virus infeksiyalarında antibiotik qəbul etdikcə, bakteriyalar daha da güclənir. Antibiotik yarımçıq dayandırıldıqda isə sağ qalan bakteriyalar daha aqressiv və davamlı nəsil yetişdirir. Nəticədə adi infeksiya həftələrlə çəkir, ağırlaşmalar artır, immun sistemi zəifləyir, bağırsaq florası pozulur və yeni sağlamlıq problemləri yaranır.

### Mövcud 200 antibiotik növündən bu gün cəmi 60-ı istifadə olunur

Bu gün dünya "superböcəklər" adlandırılan çox davamlı bakteriyaların təhlükəsi ilə üz-üzədir. MRSA, VRE, MRGN kimi bakteriyalar bir neçə antibiotik sinfinə eyni anda davamlıdır. Onların yaratdığı infeksiyalar bir çox hallarda müalicəyə tabe olmur. İmmun sistemi zəif olan xəstələr - xərçəng xəstələri, transplantasiya olunanlar, yeni doğulmuşlar və yaşlılar xüsusilə risk altındadır.

Bakteriyalar antibiotiklərə qarşı çox ağıllı strategiyalar qurur: hüceyrə divarını dəyişdirir, antibiotiki parçalayır, hüceyrədən xaric edən nasoslar yaradır və ya digər bakteriyalardan müqavimət genlərini "alış-veriş" edir. Bu isə problemin miqyasını daha da dərinləşdirir, çünki davamlılıq bir növdən digərinə keçərək sürətlə yayılır. Elə buna görə də mövcud 200 antibiotik növündən bu gün cəmi 60-ı istifadə olunur. Digərləri isə artıq təsirini itirib.

Müqavimətin qarşısını almaq üçün dünya ölkələri xüsusi strategiyalar hazırlayırlar. ÜST-nin "Antibiotiklərə Müqavimətlə Mübarizə üzrə Qlobal Fəaliyyət Planı", eləcə də bir çox ölkələrdə tətbiq olunan milli antibiotik nəzarət proqramları problemin miqyasını azaltmağa çalışır. Lakin təkcə dövlətlərin səyi yetərli deyil. Hər bir insan bu prosesdə iştirak etməlidir.

Biz nə edə bilərik? Antibiotikləri yalnız həkim tərəfindən təyin olunduğu halda qəbul etməli, soyuqdəymə, qrip kimi virus xəstəliklərində bunu içməməliyik. Əl gigiyenasına ciddi riayət etməli, qida rasionuna antibiotiksiz və düzgün yetişdirilmiş heyvan ətlərini əlavə etməliyik.

İndiyə qədər milyonlarla insanın həyatını xilas edən antibiotiklər tibb aləminin ən güclü silahlarından biridir. Bu güc isə yalnız doğru istifadə olunduqda təsirini göstərir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Onlayn bilet teatr zallarına gedişi asanlaşdırsa da, teatr-tamaşaçı münasibətinin tam bərpası üçün kifayət etmir

"Müasir tamaşaçı artıq XIX-XX əsrin tamaşaçısından fərqlənir. O zaman tamaşaçı müəyyən ideoloji çərçivədə formalaşırdı. Müstəqillik dövründə bu məhdudiyyətlər aradan qalxıb. Həm milli, həm də xarici dramaturgiyanın müxtəlif janrları, sovet dövründə səhnəyə çıxmasına icazə verilməyən mövzular bu gün teatr repertuarında geniş yer tutur".



Bunu AZƏRTAC-a açıqlamasında sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun Teatr, kino və televiziya şöbəsinin müdiri Vidadi Qafarov söyləyib.

Onun sözlərinə görə, dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da teatrın kütləvilik funksiyası zəifləyib. Teatrlar və tamaşaçılar getdikcə daha çox elit bir mühitə çevrilir. "Statistika da bunu təsdiqləyir. 1990-cı ildə teatr tamaşaçıları 1 milyon 584 min nəfər idisə, 2019-cu ildə bu göstərici 645 min nəfərə düşüb. Bu, təxminən 3,5 dəfə azalma deməkdir. Tamaşaçı sayındakı azalmanın səbəbləri internet və sosial şəbəkələrin insanların sərbəst vaxtına təsiri, eləcə də bəzi repertuar boşluqları ilə bağlıdır", - deyə V.Qafarov əlavə edib.

Bununla yanaşı, son bir neçə ildə müəyyən artımın da müşahidə olunduğunu vurğulayan sənətşünaslıq üzrə fəlsəfə doktoru deyib: "Onlayn bilet əldə etmə imkanları teatr zallarına gedişi asanlaşdırsa da, hələlik teatr-tamaşaçı münasibətinin tam bərpası üçün kifayət etmir. Bu mənzərə göstərir ki, müasir tamaşaçı dəyişib və teatrın da bu yeni tamaşaçı modelinə uyğunlaşması vacibdir".

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzərEnerji" ASC-nin rəhbərliyi və kollektivi Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı

**MƏZAHİR BALAQADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Səadət Hasilovaya anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4071
Sifariş 2389

Qiyməti 60 qəpik